www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 20 iyul 2016-cı il Çərşənbə № 156 (6477) Qiymәti 60 qәpik

**Xəbər**

## Ana olan məktəbli qızların şok statistikası açıqlandı

yazısı səh.13-də

**Gündəm**

### Referendum aktı ictimai müzakirədə




Yeni idarəçilik formatının ölkə üçün uğurlu model olacağı bəyan edilir, müxalifət isə əksini düşünür

yazısı səh.11-də

### Sərnişin avtobusları xəstəlik mənbəyidir

yazısı səh.13-də

*Heydər Camal:*

### "15 iyulda Türkiyə xalqı İslam yolunu seçdi"

yazısı səh.9-da

### Azərbaycan ətrafında üç ölkədə gərginlik

yazısı səh.8-də

### "Ölkə müxalifəti fəaliyyətsizdir" iddiasına reaksiyalar

yazısı səh.7-də

### Nazarbayevə sələfi təhlükəsi

yazısı səh.8-də

### AXC hökumətinin mühüm fiqurundan şok açıqlamalar

yazısı səh.10-da

### 70-dən çox ölkədə edam cəzası hələ də qalır

yazısı səh.14-də

### Qiyamdan sonrakı Türkiyə: yeni xəbərlər, həbslər...

yazısı səh.12-də

### Araz Əlizadə müxalifəti aşağıladı - cavab gecikmədi

yazısı səh.7-də

### MTN-də Şeyxin əleyhinə ifadə verməsi istənilən ilahiyyatçı özünü günahkar bilmir

yazısı səh.2-də

## İşğalçı ölkə siyasi təlatümlər zolağında

# KREML GENERALLARINI QİYAM QALXMIŞ ERMƏNİSTANA GÖNDƏRİR

İrəvanda silahlı müxalifətçilərlə hakimiyyət arasında böhran dərinləşir; istefası tələb olunan Serj Sərkisyan polisləri 4 gündür girov saxlayan qiyamçılara vaxt qoydu; ölkədə siyasi terrorun "ayaq səsləri" eşidilməkdədir...




yazısı səh.5-də

## ANS rəsmən bağlandı - sensasion gəlişmənin pərdəarxası

Azərbaycan hakimiyyəti Türkiyə ilə strateji müttəfiqlik, dostluq və qardaşlıq münasibətlərini əsas tutaraq telekanalı qurban verdi; Gülənçi Qafqaz Universiteti də qapılarını bağlamaq üzrədir

yazısı səh.3-də



*Toğrul İsmayıl:*

### "Ən dəyər verdiyim tələbələrimdən biri öldürüldü"

yazısı səh.6-da



*Nurəddin Mehdixanlı:*

### ""Azdrama"nı da uçurmaq istəyirdilər"

yazısı səh.15-də



*Azər Ayxan:*

### "Türkiyənin başına gələn fəlakətin qarşısı Ərdoğanın iradəsi ilə alındı"

yazısı səh.4-də

## Rəsul Quliyevin qardaşı vəfat etdi



**Eks-spiker, 1996-cı ildən Amerikada mühacir həyatı yaşayan Rəsul Quliyevə ağır itki üz verib. R.Quliyevin qardaşı, iş adamı Rza Quliyevin atası Sabir Bayram oğlu Quliyev bu gün səhər saatlarında vəfat edib.**

Rəsul Quliyevin qardaşının yasında iştirak etməsinə icazə verilib-verilməyəcəyi sual altındadır. Bununla bağlı müraciət edilib-edilməməsinə dair onun yaxınları müzakirələr aparır.

Sabir Quliyevin yas məclisi 20 və 21 iyul tarixlərində Həzi Aslanov metro stansiyasının yaxınlığındakı "Zəm-zəm" mərasim zalında təşkil olunacaq.

Nəzərə çatdıraq ki, bir neçə il öncə keçmiş prezident Ayaz Mütəllibovun oğlu dünyasını dəyişərkən onun yas mərasimində iştirakına icazə verilmişdi.

# Ümid Partiyası Rauf Arifoğlunu təbrik etdi





### Ümid Partiyası "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlunu qarşıdan gələn (23 iyul) 50 illik yubileyi münasibətilə təbrik etdi

**İyulun 19-da Ümid Partiyasının Ali Məclisinin sədri Rafail Tağızadə, İctimaiyyətlə əlaqələr və xaricdə yaşayan soydaşlarımızla iş üzrə sədr müavini Rüfət Muradlı, humanitar məsələlər üzrə sədr müavini Səməd Hətəmov, təbliğat məsələləri üzrə sədr müavini Tamilla Qulami, mətbuat və informasiya məsələləri üzrə sədr müavini Elman Abbasov "Yeni Müsavat" qəzetinə gələrək, qəzetin baş redaktoru Rauf Arifoğlunu 50 illik yubileyi münasibətilə təbrik edib.**

Qonaqlar partiya adından R.Arifoğluna üzərində «Yeni Müsavat» qəzetinin sahibi, dəyərli jurnalist, Azərbaycanda söz və mətbuat azadlığı üçün ciddi töhfələr vermiş Rauf Arifoğlunu 50 illik yubileyi münasibətilə təbrik edərək şəxsinin və "Yeni Müsavat"ın Ümid Partiyasının dostu olduğunu bir daha bəyan edirik", yazılmış plaket təqdim edib.

SƏBA

TƏBİƏTDƏN MƏTBƏXƏ

## «Səba» ASC son 2 ildə toyuq əti istehsalının təkmilləşdirilməsinə 15 milyon manat investisiya qoyub

«Səba» şirkəti damazlıq yumurtanın xaricdən alınmasını daxili istehsalla əvəz etməyə hazırlaşır. Bu, istehsalın xarici valyutadan asılılığını azaltmaq istiqamətində şirkətin atdığı növbəti addım olacaq. Belə ki, bir neçə il əvvəl əkin sahələri salması ilə «Səba» bu gün quş yemini təşkil edən qarğıdalı, buğda və soyaya olan tələbatının bir hissəsini özü qarşılaya bilir. Qida təhlükəsizliyi baxımından yemin keyfiyyətinə nəzarət etməsi ilə yanaşı, şirkət xarici valyutadan asılılıqdan artan maya dəyərinin əsas hissəsini - yem xərclərini də aşağı salmaq imkanı qazanıb.

«Səba» istehsalat sahəsində istifadə olunan avadanlıqları ən son texnologiyalara uyğun olaraq dayanmadan təkmilləşdirir. Son 2 il ərzində keyfiyyət və kəmiyyət baxımından toyuq əti istehsalının inkişaf etdirilməsi üçün şirkət 15 mln. manata yaxın dəyərdə yeni avadanlıqlar alıb və istehsal sahələrini genişləndirib. Bu avadanlıqlar sayəsində «Səba» bazara daha gigiyenik, keyfiyyətli, təbii xüsusiyyətləri qoruna bilən məhsul çıxarır.

Azərbaycan Respublikası prezidentinin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı" çərçivəsində investisiya təşviqi sənədini alan ilk şirkətlərdən biri kimi, «Səba» ASC qarşıdakı 2 ildə istehsalat və emal sahələrini daha da təkmilləşdirəcək. Bu, xüsusilə qablaşdırmada əl əməyinin yüngülləşdirilərək maşın işi ilə əvəzlənməsi, ən müasir kəsim aparatları ilə təchizat ilə özünü göstərəcək.

«Səba» şirkəti kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan bir şirkət kimi, əlavə dəyər vergisindən azad olunsa da, təkcə keçən 2 il ərzində dövlət büdcəsinə 5 mln manata yaxın vergi və sosial ödəniş edib. Orta aylıq əmək haqqı 2012-ci ildə 360 manat təşkil edirdisə, 2015-ci ildə 580 manat təşkil edib.

Bundan başqa, "Təbiətdən mətbəxə" şüarına sadiq qalaraq, əhalini gündəlik təzə ət və süd məhsulları ilə təmin etmək üçün «Səba» ət-süd dükanları əhalinin xidmətinə verib. Bu dükanlara istehsaldan 6 saat keçməmiş çatdırılan «Səba» məhsullarını istehlakçılar daha aşağı qiymətə ala bilirlər.

Qeyd edək ki, «Səba» Azərbaycanın dövlət halal standartına malik yeganə toyuq əti istehsalçısıdır.



## "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


## MTN-də Şeyxin əleyhinə ifadə verməsi istənilən ilahiyyatçı özünü günahkar bilmir

**İyulun 19-da Bakı Ağır Cinayətlər Məhkəməsində Qafqaz Müsəlmanları İdarəsinin sabiq sektor müdiri, ilahiyyatçı Elşən Mustafaoğlunun məhkəmə prosesi davam etdirilib.**

Musavat.com-un əldə etdiyi məlumata görə, hakim Səbuhi Hüseynovun sədrliyi ilə keçirilən prosesdə prokuror ittiham aktını elan edib, təqsirləndirilən şəxsin vəkili vəsatətlər qaldırıb.

Prosesdə ilahiyyatçının vəkili Əfqan Məmmədov müvəkkili barəsində həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz edilməsi, onun dəmir barmaqlıqlar arxasından çıxarılaraq müdafiəçisinin yanında əyləşdirilməsi ilə bağlı vəsatətlər qaldırıb. Lakin vəsatətlər təmin edilməyib.

Prosesin davamında ittiham aktını elan edilib. Lakin ilahiyyatçı ona qarşı elan olunan ittiham aktı ilə razılaşmayıb.

O, özünü təqsirli bilmədiyini, ittiham aktı onun günahkar olduğunu sübut edən heç bir konkret fakt olmadığını deyib. İlahiyyatçı günahkar olduğu sübut ediləcəyi və konkret faktlar göstəriləcəyi halda özünü təqsirli biləcəyini etiraf edəcəyini deyib.

Qapalı keçirilən məhkəmə prosesi iyulun 26-da davam etdiriləcək.

Məlumat üçün bildirək ki, E.Mustafaoğlu bundan əvvəlki məhkəmə prosesində ləğv edilmiş MTN-də ondan Allahşükür Paşazadə və Milli Qəhrəman Rövşən Əkbərovun əleyhinə ifadə almaq istədiklərini demişdi.

Xatırladaq ki, E.Mustafaoğlu 2014-cü ilin dekabr ayında həbs edilib. Onun barəsində Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə cinayət işi açılıb.

❑ **İlkin MURADOV**

## Mirşahin və ANS üzr istədi

**"Fətullah Gülən ANS-in əməkdaşına əlahiddə bir müsahibə verməyib. Bu bir mətbuat konfransı olub ki, ANS-in əməkdaşı da digər jurnalistlərlə birlikdə burada iştirak edib. Lakin müsahibə ilə tanış olan şirkət rəhbərliyi bu mətbuat konfransına baxandan sonra və qardaş Türkiyədəki son olaylari nəzərə alaraq onu efirə verməməyi qərara alıb".**

Bunu ANS şirkətinin baş direktoru Mirşahin Ağayev APA-ya açıqlamasında deyib.

M. Ağayev qətiyyətlə bildirib ki, anonslar, ümumiyyətlə, olmayıb və təbii ki, belə olan halda olmayan anonsların efirə getməsindən də söhbət gedə bilməz: "Elə MTRŞ-nin monitorinq xidməti bunu asanlıqla təsdiq edə bilər. Fətullah Gülən, sadəcə, mətbuat konfransı keçirib və burada iştirak etmiş xarici kütləvi informasiya vasitələri həmin tədbirdən reportaj hazırlayıb, öz internet səhifələrində fotoşəkillər yerləşdiriblər. Bu şəkillərdə ANS-in müxbiri Qənirə Ataşova da var. Azərbaycanın müəyyən saytları isə həmin şəkli öz səhifəsinə qoyub və Gülənlə müsahibənin də ANS-də gedəcəyini anons ediblər. Tam məsuliyyətlə bildiririk: ANS-də Fətullah Gülənin müsahibəsinin anonsu getməyib. Tam əminliklə demək istəyirəm ki bu saytlara ANS-dən belə bir məlumatı heç kim verməyib".

**M. Ağayev bildirib ki, baş verənlərdə ANS-in də səhvi olub:** "Bizim əməkdaşımızın Fətullah Gülənin mətbuat konfransında iştirak etməsi belə həssas məqamda ciddi ehtiyatsızlıq idi və mən etiraf edirəm ki, bu addımın Azərbaycan və Türkiyə arasında belə böyük narahatlıq yaradacağını güman etməzdim. Bu ciddi xətadır və mən buna görə ANS rəhbərliyi adından Türkiyə və Azərbaycan xalqlarından üzr istəyirəm. Bu gün biz həm də ANS-in milyonlarla tamaşaçısından üzr istəyirik. Ona görə ki, ANS-in bağlanmasına gətirib çıxaran addım atmış, onları nigaran və müvəqqəti də olsa ANS-siz qoymuşuq. Biz məsələ ilə bağlı hüquq-mühafizə orqanlarına ətraflı izahat, lazımi sübut və dəlillər təqdim etmişik və inanırıq ki, tezliklə ədalətli qərar çıxarılacaq, ANS bundan sonrakı fəaliyyətində daha diqqətli və ehtiyatlı olacaq. Eyni zamanda həmişə azad mətbuata dəstək olan Prezidentimiz İlham Əliyevdən çoxsaylı kollektivimiz adından xahiş edirik ki, 22 iyul Mətbuat Günü ərəfəsində fəaliyyətimizi bərpa etməklə yüzlərlə əməkdaşımızı və milyonlarla tamaşaçımızı sevindirsin".

## Avropa İttifaqı Türkiyə ilə viza rejimini ləğv etməyəcək

**Avropa Komissiyası bu il Türkiyə ilə viza rejimini ləğv etməyəcək. APA-nın "Reuters"ə istinadən verdiyi xəbərə görə, Avropa İttifaqının rəqəmsal iqtisadiyyat və cəmiyyət məsələləri üzrə komissarı Günter Öttinger Türkiyədə hərbi çevrilişə cəhddən sonra başlayan həbs və işdən çıxarılma dalğası ilə əlaqədar ölkəyə bu il vizasız səyahət haqqı veriləcəyini təxmin etmədiyini deyib. O bildirib ki, Türkiyə hökuməti Brüssel tərəfindən müəyyənləşdirilən şərtləri yerinə yetirməlidir: "Qanunun aliliyi təmin olunmalıdır. Hazırda biz bunu müşahidə etmirik".**

G. Öttinger bu yaxınlarda Türkiyədə millət vəkilliyi toxunulmazlığının ləğv olunmasını və çevriliş cəhdindən sonra aparılan təmizləmələri tənqid edərək bəyan edib ki, bu, müxalif partiyaların, azadlıqların sıxışdırılmasına yönəlib: "Dövlət bir anda minlərlə hakimdən imtina edə bilməz. Məhkəmələrin müstəqilliyi əsas elementdir".

## Cahangir Hacıyevin işi məhkəməyə göndərildi - rəsmi xəbər

**Beynəlxalq Bank ASC-nin sabiq rəhbəri Cahangir Hacıyevlə bağlı yeni məlumat yayılıb. Bununla bağlı musavat.com-a cinayət təqibini həyata keçirən istintaq qrupundan məlumat daxil olub. Məlumatda deyilir:**

""Azərbaycan Beynəlxalq Bankı" ASC-yə külli miqdarda ziyan vurulması faktı üzrə cinayət təqibini həyata keçirən istintaq qrupunun

MƏLUMATI

"Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyev və digər 7 şəxsin Cinayət Məcəlləsinin 179.3.1, 179.3.2 (mütəşəkkil dəstə tərəfindən külli miqdarda mənimsəmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda), 309.2 (vəzifə səlahiyyətlərini aşma ağır nəticələrə səbəb olduqda), 313-cü (vəzifə saxtakarlığı), 228.1 və 228.4-c :\4075ü (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə) maddələri ilə təqsirləndirilməsinə dair cinayət işinin istintaqı yekunlaşaraq təqsirləndirilən şəxslər, onların müdafiəçiləri iş materialları ilə tanış edilmiş və iş üzrə ittiham aktı Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən 19 iyul 2016-cı il tarixdə təsdiq ediləərək baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilmişdir".

Xatırladaq ki, Cahangir Hacıyev 2015-ci ilin mart ayında işdən azad edilib. 2015-ci ilin dekabrında isə barəsində həbs-qətimkan tədbiri seçilib. Onun rəhbərlik etdiyi bankdan külli miqdarda pulları qanunsuz yollarla mənimsədiyinə dair istintaqda faktlar var.

C.Hacıyev sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovla qudadır. E.Mahmudov vəzifədən çıxarıldıqdan az sonra C.Hacıyev həbs edildi.

C.Hacıyevin həyat yoldaşı Zamirə Hacıyeva da "Beynəlxalq Bank işi" üzrə istintaqa cəlb olunub. Lakin onun ölkədən qaçdığı, hazırda Böyük Britaniyada olduğu bildirilir. Bu haqda ötən ay mətbuatda məlumat gedib.

YENİ MÜSAVAT
N 156 (6477) 20 iyul 2016

# ANS rəsmən bağlandı - sensasion gəlişmənin pərdəarxası

**Azərbaycan hakimiyyəti Türkiyə ilə strateji müttəfiqlik, dostluq və qardaşlıq münasibətlərini əsas tutaraq ANS-in fəaliyyətini dayandırdı və faktiki olaraq onu qurban verdi**

**Türkiyədə qarşısı alınan 15 iyul silahlı qiyamının Azərbaycana da müəyyən təsirlərinin olacağı xəbərləri özünü tezliklə doğrultdu. Bu xəbərlərdə əsas xətt ABŞ-da sığınacaq tapan "Hizmət" hərəkatının lideri Fətullah Gülənlə bağlı idi. Bildirilirdi ki, qiyamın təşkilatçısı kimi göstərilən F.Gülənin Azərbaycanla bağlı xeyli zəifləndilmiş "kökləri" yenidən "qazılacaq".**

İyulun 18-də ANS telekanalının yayımının qəfil dayandırılmasının məhz F.Gülənlə bağlı olduğunu heç kim inkar etmir, əksinə, rəsmilər ilk dəfə məhz vurğunun Türkiyə-Azərbaycan münasibətlərini ciddi zədələyən F.Gülənin təbliği, eləcə də hərəkat liderinin anons edilən müsahibəsi olduğunu bəyan edirlər.

İyulun 19-da Milli Televiziya və Radio Şurası (MTRŞ) ANS-in yayımının bir ay dayandırılması ilə bağlı rəsmi məlumat yayıb. Məlumatda bildirilir ki, Azərbaycan prezidenti İlham Əliyev son günlər Türkiyədə baş vermiş hadisələri birmənalı şəkildə dövlət çevrilişi cəhdi, Türkiyə dövlətçiliyinə, türk xalqına, onun iradəsi və seçiminə qarşı törədilən dəhşətli cinayət kimi qiymətləndirib. "Prezident İlham Əliyev Azərbaycanın Türkiyə dövlətinin və xalqının yanında olduğunu, Türkiyə vətəndaşlarının demokratik yolla seçdiyi hakimiyyəti hərtərəfli dəstəklədiyini bəyan edib və bununla bağlı ölkənin müvafiq orqanlarına lazımi tapşırıqlar verib. Təəssüf ki, ANS Müstəqil Yayım və Media Şirkəti Azərbaycan və Türkiyə xalqları arasında qardaşlıq və strateji tərəfdaşlıq münasibətlərinin ruhuna zidd mövqe tutub, Türkiyə dövlətinin və hakimiyyətinin əleyhinə təbliğat aparıb, bu ölkədə terrorçu təşkilat kimi tanınan, çoxsaylı insan ölümünə səbəb olmuş qanlı hadisələri təşkil edən Fətullah Gülənə və onun tərəfdarlarına dəstək verib", - deyə, məlumatda bildirilir.

Məlumatda həmçinin qeyd olunur ki, hadisə baş verən andan ANS telekanalı ayrı-ayrı reportajlarında, müsahibələrdə Azərbaycan ictimaiyyətinə Türkiyədə baş verən hadisələrin "hakimiyyət tərəfindən təşkil edilən şou" olduğunu təlqin etməyə, Türkiyə hakimiyyətinin həyata keçirdiyi tədbirləri gözdən salmağa çalışıb. "ANS-in ABŞ-dakı əməkdaşı Türkiyədə hakimiyyət çevrilişinə rəhbərlik etməkdə şübhəli bilinən Fətullah Gülәndən müsahibə alıb, bu müsahibə yerli və xarici KİV-lər vasitəsilə anons edilib" deyə, MTRŞ bildirib.

MTRŞ bildirib ki, dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, ANS telekanalı terrorizmin təbliği istiqamətində fəaliyyətini davam etdirib, Türkiyə hakimiyyətinin vəziyyətin sabitləşdirilməsi istiqamətində atdığı addımları hədəfə götürüb, yüzlərlə insanın qətlə yetirilməsinə səbəb olan qəddar cinayətə bəraət qazandırmağa çalışıb və nəticə etibarilə qardaş ölkədə vətəndaş qarşıdurmasının dərinləşməsinə yönələn addımlar atıb.



MTRŞ bildirib ki, şirkətə 25 oktyabr 2013-cü il tarixdə verilmiş TR 100 saylı xüsusi razılığa (lisenziyaya) da xitam verilib. Qeyd edək ki, ANS rəhbərliyi Baş Prokurorluqda da ifadə verib. MTRŞ-nin yekun qərarı ilə ANS televiziyası 1 ay müddətinə qapadılıb, ANS ÇM radiosunun lisenziyası isə birdəfəlik ləğv olunub.

Ehtimal ki, iyulun 18-də prezident İlham Əliyevlə Türkiyə cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı zamanı Azərbaycan mediasının qardaş ölkədə baş verən hadisələrə münasibəti də müzakirə olunub. Nəzərə alsaq ki, indi Türkiyə hökuməti üçün çox həssas bir mərhələdir. Təsadüfi deyil ki, təkcə Azərbaycanda deyil, dünyanın hər hansı bir ölkəsində Türkiyə ilə bağlı informasiya dərhal rəsmi Ankaranın reaksiyasına səbəb olur. Bu baxımdan, ANS-in narazı qaldıqları mövqeyi və Fətullah Gülənlə anons etdiyi özəl müsahibəsi Türkiyə hakimiyyətinin diqqətini cəlb etməyə bilməzdi. Ehtimal ki, məhz telefon danışığında Ərdoğan bəzi media quruluşlarının, xüsusilə ANS telekanalının münasibətindən narazılığını ifadə edib. ANS-in ABŞ-dakı müxbiri Qənirə Ataşovanın Fətullah Gülәndən müsahibə alması və bu müsahibənin telekanalda yayılma ehtimalı Türkiyə tərəfini həddən artıq qayğılandırıb.

Üstəlik, MTRŞ-nin yaydığı bəyanatdan da görünür ki, Türkiyə rəhbərliyi təkcə Gülənlə müsahibədən qayğılanmayıb, ümumiyyətlə, ANŞ-in qiyamla bağlı mövqeyindən narazı olub.

Musavat.com-un məlumatına görə, prezidentlərin danışığından əvvəl də Türkiyənin Azərbaycandakı səfiri bir neçə dəfə Xarici İşlər Nazirliyi, daha sonra isə Prezident Administrasiyası ilə əlaqə saxlayıb və Ankaranın bu məsələdə narahatlığını diqqətə çatdırıb. Məlumatda iddia olunur ki, həmçinin Türkiyə Prezidenti Administrasiyasının yetkililəri Azərbaycan Prezidenti Administrasiyasının nümayəndələri ilə bir neçə dəfə təmas qurublar və yaranmış problemin həllinə təsir göstərilməsini xahiş ediblər.

Rəsmi açıqlama və 1 aylıq qadağa, o cümlədən də ANS radiosunun tam qapadılması da təsdiq edir ki, ANS-lə bağlı baş verən olaylar məhz Türkiyə hakimiyyəti ilə təmasların nəticəsidir. Azərbaycan hakimiyyəti Türkiyə ilə strateji müttəfiqlik, dostluq və qardaşlıq münasibətlərini əsas tutaraq ANS-in fəaliyyətini dayandırdı və faktiki olaraq onu qurban verdi.

Burada mühüm bir məqamı da qeyd etmək lazımdır. Azərbaycan hakimiyyəti ANS-i bağlamaqla xaricdən mümkün təpkiləri də gözə almamış deyil. Amma bu qərarlılıq həm də onu sübut edir ki, iki ölkə rəhbərliyi arasında münasibətlər hansı səviyyədədir ki, ölkələrinin mənafeyi üçün hətta mümkün təzyiqləri belə gözardı edə bilirlər.

Daxil olan digər məlumatlara görə, paralel olaraq Azərbaycanda Gülən tərəfdarlarına qarşı da tədbirlər gücləndirilib. İddia olunur ki, artıq Qafqaz Universiteti sıxışdırılıb və onun fəaliyyətinin hətta bugünlərdə dayandırılacağı da mümkündür. O cümlədən, "SOCAR Turkey Energy"də artıq nurçulardan təmizlənmə əməliyyatının başa çatdığı söylənilir. Belə ki, şirkətin icraçı direktoru Kənan Yavuzdan sonra onun müavini Samir Kərimli də vəzifəsindən çıxarılıb. Bunun ardınca isə bütün nurçu şəbəkənin şirkətdən təmizləndiyi söylənilir.

Daha bir iddia da "Xəzər" telekanalı ilə bağlıdır. Belə ki, xəbərlərə görə, bir neçə aydır ki, "Xəzər" telekanalından nurçuların təmizlənməsi prosesi gedir. İcraçı direktor Hüseyn Dinləməz də daxil olmaqla, telekanalda çalışan xeyli sayda gülənçinin oradan uzaqlaşdırıldığı iddia olunur.

Bildirilir ki, Fətullah Gülənin Azərbaycandakı təhsil şəbəkəsinin son qalıqları ilə bağlı məsələ də artıq həll olunur.

❑ **"Yeni Müsavat"**

# Türkiyə - 15 iyuldan sonra...



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Doğrudan da qiyam qalib gələndə inqilab, uduzanda isə elə qiyam adlanır. Birinci halda qələbənin şərikləri çox olursa, ikinci hal - məğlubiyyət yetim kimidir, ona sahib çıxan tapılmır. Bu da məntiqlidir, çünki qələbə müəyyən üstünlüklər, əlavə imtiyazlar vəd edirsə, məğlubların nəsibi yalnız ictimai qınaq və hətta həbsxana aqibətidir.**

Türkiyədəki hərbi çevriliş cəhdi də istisna olmadı və üstəlik, qardaş ölkənin dost-düşmənlərinin sırasına güclü işıq saldı. Bəlli oldu ki, əslində 15 iyul silahlı qiyamının qalib gəlməsi arzusunda olan qüvvələr ölkə xaricində, dost sayılan çevrələrdə də az olmayıb. Sən demə, bir çoxları qiyamçı generalların qələbəsini səbirsizliklə gözləyirmiş.

Ona görə yox ki, sadəcə, islamçı hökumətin süqutunu istəyirmişlər, ona görə ki, Türkiyənin zəifləməsinin, taqətdən düşməsinin, onun Suriya, İraq, Misir kimi daxilən parçalanmış, vətəndaş qarşıdurması halına gəlmiş bir məmləkətə çevrilməsinin marağında imişlər.

Hərbi qiyama gizli rəğbət bəsləyən dövlətlərin arealı, çevrəsi diqqətli oxuculara bəllidir. Onların arasında seçki yolunu guya prioritet elan edən demokratik ölkələr də var, qeyri-demokratik dövlətlər də...

Amma qiyam xalqın birbaşa müdaxiləsi ilə yatırıldı və bu qüvvələr "valı" dəyişməli, xala xətrinə Türkiyəyə dəstək bəyanatları ilə çıxış etməli oldular. Əfsus ki, ABŞ və Avropa Birliyindən də ikibaşlı bəyanatlar eşitdik. Dövlət katibi Con Kerri bir az da hədələyici tonda bəyan etdi ki, əgər qiyamçılara münasibətdə ədalətli rəftar edilməsə, Türkiyədə demokratik prinsiplər gözlənilməsə, o, NATO-dan çıxarıla bilər. Qəribədir ki, Kerri bununla bir növ NATO baş katibinin adından, NATO adından danışmış oldu - ona səlahiyyəti çatmaya-çatmaya.

Hərçənd Türkiyə ABŞ-ın regionda yeganə və heç bir ölkə ilə əvəzlənməsi mümkün olmayan strateji müttəfiqidir. Yəni Türkiyənin NATO-dan ayrılmasının altını ən çox elə Amerika və NATO çəkər, nəinki Türkiyə. Zira, Alyansın cənub cinahı kimi Türkiyə ona daha çox lazımdır, nəinki Alyans Türkiyəyə. Udan isə əlbəttə ki, Rusiya olardı o halda. Hər necə olmasa, NATO-da ikinci böyük orduya sahib olan Türkiyəsiz Alyans heç vaxt əvvəlki nüfuzda və təsirdə qala bilməz.

Yeri gəlmişkən, baş katib Yens Stoltenberq bildirib ki, NATO-ya üzv ölkədə hərbi çevriliş baş verməməlidir. Çox yaxşı. Təkcə NATO-ya üzv ölkədə deyil, ümumiyyətlə, normal, demokratik ölkədə belə təlatüm yaşanmamalıdır. Amma Türkiyədə son olaraq 1997-ci ildə, ondan öncə də bir neçə hərbi çevriliş olmuş, edamlar həyata keçirilmişdi və onda da ölkə NATO-nun üzvü idi. Fəqət, həmin hərbi çevrilişlərə NATO rəhbərliyi normal baxmış, çevrilişi pisləməmişdi. Başa düşürük, siyasət mürəkkəb şeydir, ancaq siyasətdə "qırmızı xətlər" deyilən anlayış da var axı.

Odur ki, 15 iyul insidentindən Türkiyə hökuməti də bəzi ibrət dərsləri götürməlidir. Birincisi, qiyam ordunun, dövlətin imicinə, milli vəhdətə zərbə vurduğundan, AKP iqtidarı ilk növbədə bu zərbənin nəticələrini aradan qaldırmağı, ölkədə siyasi-ictimai sabitliyi qısa zamanda bərpa eləməyi hədəf seçməlidir.

İnanıraq ki, belə də olacaq və Türkiyə vəziyyətdən daha güclü şəkildə çıxa biləcək. Çünki xalqın etimadı, dəstəyi hökumətin arxasındadır. Bu, həm də ona görə vacibdir ki, ölkə iqtisadiyyatı mümkün təlatümlərdən yan keçib stabil axara düşsün, ölkənin iqtisadi-biznes göstəriciləri böhrana girməsin.

İkincisi, xarici və daxili düşmənlərin əlinə kozır verməmək üçün AKP iqtidara həqiqətən ən layiqli və legitim qüvvə olduğunu əməldə dünyaya sübut eləməlidir. Bundan ötrü təməl insan haqları və azadlıqlarına, o sırada söz-ifadə azadlıqlarına saygı yerində qalmalı, kütləvi həbs və repressiyalardan çəkinməli, qiyamdan sonra siyasi opponentlərə qarşı daxildə "əcinnə ovu"na çıxılmamalıdır.

Üçüncüsü, milli və dövlət maraqları naminə Türkiyə cəmiyyətinin birləşməsinə nail olunmalıdır. Dördüncüsü və ən önəmlisi, ölkədə ədalətli və şəffaf seçki sisteminin, hakimiyyətlərin seçki yolu ilə dəyişməsi kimi demokratik mexanizmdən, demokratik dəyər və ənənədən uzaqlaşılmamalıdır.

Bütün bunları Ərdoğan hökumətindən həm də yeni çevriliş ehtimalını sıfırlamaq imperativi tələb edir. Nəhayət, Türkiyə rəsmiləri gərək unutmasınlar ki, 15 iyul hadisələrinin əsas qalibi xalqdır. Hakimiyyətin qiyamdan sonra atdığı və atacağı bütün addımlar da müstəsna olaraq xalq naminə olmalıdır. Əks halda, 15 iyul faciəsi təkrarlana bilər.

YENİ MÜSAVAT
N 156 (6477) 20 iyul 2016

**Türkiyədə baş verən 15 iyul qiyamının canlı şahidlərindən biri olan "Yeni Müsavat" qəzetinin baş redaktorunun birinci müavini Azər Ayxan hadisə ilə bağlı təəssüratlarını bölüşüb. Çevrilişə cəhdin başladığı ilk anlarda bu haqda sosial şəbəkədəki səhifəsində şərhlər yazıb, baş verənləri təhlil edən, Azərbaycandan Türkiyəyə baxışda yol verilən nöqsanlara münasibət bildirən redaktor müavini artıq vətənə dönüb. Bu baxımdan, Türkiyədə baş verənlərlə bağlı onun da təəssüratlarını, mövqeyini öyrəndik.**



**"Birinci qənaətim odur ki, Türkiyənin başına gələn bu fəlakətin qarşısı bu ölkənin lideri Rəcəb Tayyib Ərdoğanın iradəsi ilə alındı"**

# "Ərdoğan Türkiyəni böyük bir fəlakətdən xilas etdi" - Türkiyədən təzə qayıdan azərbaycanlı jurnalist

## Azər Ayxan: "Bu qiyamın yatırılmasının bir nömrəli səbəblərindən biri də qiyamçıların media dəstəyinin olmaması idi"

***- Azər bəy, hadisədən bir neçə gün öncə də Türkiyədə idiniz. Vəziyyət necə idi, cəmiyyətdə hər hansı gərginlik var idimi?***

- Hadisədən bir gün öncə, iyulun 14-də İstanbulda bir bomba həyəcanı yaşandı. Mən Eminönündə idim, bu ərazi həmişə qarışıqlıq olur. Tramvayla Sultan Əhməd Camesinə getmək istəyərkən məlum oldu ki, tramvay xətləri dayandırılıb və sərnişinlər düşürülür. Təhlükəsizlik xidmətinin əməkdaşları bildirdilər ki, "Sirkəci" deyilən ərazidə bomba həyəcanı var, ona görə də həmin istiqamətə gedən bütün tramvay xətləri ləğv olunub, sərnişinlər düşürülür. Həm müşahidələrim əsasında, həm də intuitiv olaraq hiss edirdim ki, İstanbulda bir gərginlik var. Davamlı terror hadisələrinin olduğu bir ölkənin əsas şəhərində gəzmək insanda bir psixoloji gərginlik yaradır. Hər an nə isə baş verəcəyini gözləyirdik.

***- Bəs hadisələrin başlamasından, bunun məhz hərbi çevriliş olmasından nə zaman xəbərdar oldunuz?***

- 15 iyulda axşam saatlarında eşitdik ki, İstanbuldakı hər iki körpü bağlanıb. Türkiyənin əsas xəbər kanalı olan NTV-ni açdım. NTV-nin şərhçiləri təəccüblə deyirdilər ki, maraqlıdır, körpünün Asiyadan Avropaya keçən hissəsini əsgərlər, digər tərəfini isə polislər tutub. Şərhlərdə də bildirilirdi ki, bu, heç vaxt belə olmayıb. Əgər antiterror tədbiridirsə, burada polis və xüsusi xidmət orqanları iştirak etməlidir. Əsgərlərin görünməsi sual yaradırdı. Təxminən 5-10 dəqiqə sonra Türkiyənin baş naziri Binəli Yıldırımı telefon vasitəsilə canlı yayıma qoşdular. Mən burada xüsusi olaraq qeyd etmək istəyirəm ki, Türkiyə məmurları, baş nazirdən tutmuş, valiyə qədər, hər kəs jurnalistlər üçün əlçatandır. Əksər vaxtlarda onlarla əlaqə saxlayıb rəy ala bilirlər. Binəli Yıldırım da ilk olaraq canlı yayıma qoşuldu və bildirdi ki, bu "askeri ayaklanma"dır. Sonrakı prosesləri də zatən hər kəs bilir.

***- Təəssüratınız necə idi, çevrilişin baş tutacağını gözləyirdiniz, yoxsa yatırılacağını?***

**"Bir gün öncədən, həm müşahidələrim əsasında, həm də intuitiv olaraq hiss edirdim ki, İstanbulda bir gərginlik var"**

- Biz də 90-cı illərdən bəri Azərbaycanda bir neçə hərbi çevrilişin, qiyamın, silahlı yolla iqtidar dəyişimlərinin bilavasitə mərkəzində iştirak etmiş adamlarıq. Bu cür prosesləri dəfələrlə həm jurnalist, həm vətəndaş, həm də hərəkatda iştirak edən şəxs kimi yaşamışıq. Mən hiss edirdim ki, bu hərbi qiyamın perspektivi görünmür. Təbii ki, həm də narahat idim, həmin gecə səhərə kimi yatmadıq. Mənim qaldığım hotel Atatürk Hava Limanının 2-3 kilometrliyində idi, orada iki partlayış oldu, havada F16-lar uçurdu. Bu haqda musavat.com-da məlumat verilmişdi.

***- Hansı qənaətə gəldiniz baş verənlərdən?***

- Birinci qənaətim odur ki, bu fəlakətin qarşısı Rəcəb Tayyib Ərdoğanın iradəsi ilə alındı. Türkiyə prezidenti Ali Baş Komandan və ölkə rəhbəri olaraq o ağır, çətin və təhlükəli vəziyyətdə ortaya iradə qoydu; qaçmadı, gizlənmədi, əksinə, hadisələrin ən qızğın cərəyan edən yerinə - İstanbula gəldi. Öncə jurnalistlərin, sonra xalqın qarşısına çıxdı. Xalqı meydanlara çağırdı. Xalq da onun səsinə səs verib küçələrə, meydanlara axışdı. Hakimiyyət və xalq birləşib dövləti xilas etdi.

***- Sizin facebookda bir neçə statusunuzu oxuduq. O statuslarda olaylara Azərbaycandan verilən reaksiyaları tənqid etmişdiniz.***

- Bəzi Azərbaycan jurnalistləri, siyasi şərhçilər, partiya funksionerləri, aktivistlər Türkiyədəki məlum hadisələrə macəra filminə baxırmışlar kimi yanaşırlar. Bəzən görürsən ki, kimsə deyir, "kaş Ərdoğan devriləydi". Guya bundan sonra Türkiyədə hər şey düzələcəkdi. Bu, olduqca zərərli və həm də yanlış qənaətdir. Hərbi xuntanı dəstəkləmək, onun iqtidar olmasını arzulamaq böyük ayıb və demokratiya adına ləkədi. Qiyamçılar Türkiyə Böyük Millət Məclisinin binasını bombardman ediblər. Parlament binası Türkiyə demokratiyasının beşiyidir. TBMM-in binasını bombalamaq, Türkiyədə demokratiyanı bombalayıb məhv etmək anlamına gəlir. Həmçinin TC-nin qəlbi sayılan bir neçə güc strukturlarının binası atəşə tutulub. Özəl Hərəkat Polisinin xeyli əməkdaşı qiyamçılar tərəfindən öldürülüb. Baş Qərargah rəisi girov götürülüb. Ən dəhşətlisi isə əliyalın vətəndaşlara atəş açılıb, xeyli sayda mülkü şəxs öldürülüb, yaralananların sayı-hesabı bilinmir. Belə bir qüvvənin iqtidara gəlməsi Türkiyə üçün fəlakət olardı. Mən çəkinmədən



**"Elə bir ölkə yoxdur ki, orada hərbi qiyam baş versin və sonradan xoşbəxtliyə nail olsunlar"**

deyirəm ki, Ərdoğan Türkiyəni xilas elədi. Çox vaxt bəzi siyasi fəallar yazırlar ki, Ərdoğan Atatürk Türkiyəsini məhv elədi. Mən tam məsuliyyətimlə deyirəm ki, əksinə, 15 iyul gecəsi Ərdoğan Atatürk Türkiyəsini böyük bir fəlakətdən qurtardı. Bu prosesdən sonra Ərdoğanın necə davranacağı başqa bir məsələdir. O, demokratik təsisatların fəaliyyətini daraldacaqmı, yoxsa demokratik açılım edəcəkmi, bu başqa məsələdir. Məhz 15 iyul gecəsi Türkiyənin Suriyanın və digər ərəb ölkələrinin gününə düşməsinin qarşısını aldı. Təsəvvür edin ki, qiyamçılar silahlı yolla hakimiyyəti ələ keçirirlər və ölkənin legitim hakimiyyəti buna müqavimət göstərir. Bu hal günlərlə, aylarla davam etsəydi, bu ölkənin vəziyyəti necə olacaqdı? Türkiyəni sevməyən, bu ölkənin qarışması üçün illərdir çalışan xarici qüvvələr bu prosesdən istifadə edib Türkiyənin daha da dağılmasında maraqlı olacaqdılar. Bizim üçün ikinci vətən sayılan, gedərkən din, dil, mədəniyyət problemi yaşamadığımız, dünyada yeganə və gerçək müttəfiqimiz olan Türkiyənin bu cür aqibətlə üzləşməməsinə görə sevinməliyik. Söhbət Ərdoğanın şəxsindən getmir, söhbət AKP-nin iqtidar olub-olmamasından getmir. Söhbət ondan gedir ki, Türkiyə qarışmasın, bütöv qalsın, orada hərbi çevriliş yolu ilə iqtidarlar dəyişməsin, seçki yolu ilə dəyişsin.

***- Sizcə, Türkiyə xalqı bu sınaqdan necə çıxdı?***

- Hadisələrdən təxminən bir həftə öncədən Türkiyədə idim. Xalq Suriyadan olan qaçqınlara görə hökumətdən narazı idi. Vətəndaşlar suriyalılara qucaq açdığına görə həm AKP-ni, həm də birbaşa olaraq Ərdoğanı qınayır, ciddi şəkildə tənqid edirdi. Lakin çevriliş günü hər kəs hökuməti dəstəklədi, Ərdoğanın çağırışına səs verib meydanlara toplaşdı. Bizdə bir misal var ki, ilan vuran ala çatıdan qorxar. Türkiyə vətəndaşları Cümhuriyyət dövründə bir neçə dəfə hərbi çevriliş yaşayıb. Buna görə də xalq çevrilişdən sonra nələrin yaşandığını, ölkənin hansı fəlakətlərlə üzləşdiyini görüb. Türkiyə vətəndaşı həddindən artıq yetkindir - proseslərdən xəbərdardır, dünyada, regionda, ölkəsində baş verənləri analiz etmək qabiliyyətinə malikdir. Türkiyə xalqı öz dövlətini müdafiə elədi. Bundan gözəl nə ola bilər?

***- Bu yaşadıqlarınızdan sonra Türkiyəyə getməyə ehtiyat edəcəksinizmi?***

- Bu cür hadisələr, terror təhlükəsi təkcə Türkiyədə deyil, Avropada da var. Türkiyədəki hərbi çevriliş cəhdindən bir gün əvvəl Fransanın kurort şəhəri olan Nisdə də terror hadisəsi baş verdi, insanlar öldü. Dünyanın heç bir ölkəsi terrordan sığortalanmayıb.

Mən o gecə yaşadıqlarımızı xatırlayıram, yanımda övladlarım qorxur, həyat yoldaşım qorxur, insanlar təlaş içindədirlər. Heç bir hakimiyyət hərisliyi, iqtidara gəlmək arzusu insanların göz yaşından önəmli deyil. Ona görə də seçki yolu ilə iqtidarların dəyişməsi ən gözəl mexanizmdir. Silahla, tankla, topla iqtidar dəyişmək olmaz. Elə bir ölkə yoxdur ki, orada hərbi qiyam baş versin və sonradan xoşbəxtliyə nail olsunlar. Bu, mümkün deyil.

Mən bir məsələni də qeyd etmək istəyirəm ki, bu qiyamın yatırılmasının əsas səbəblərindən biri də qiyamçıların media dəstəyinin olmaması idi. Bu səbəbdən onlar gedib Türksatın fəaliyyətini dayandırmağa çalışdılar. Təsəvvür edin ki, Türksatın fəaliyyəti dayansaydı, Türkiyədə nə radio-televiziya, nə internet, nə də digər kommunikasiya vasitələri işləməyəcəkdi. Qiyamçıların əsas məqsədlərindən biri bu idi. Necə ki, 20 Yanvarda AzTV-nin enerji blokunu dağıtdılar, nəyin baş verdiyini bilmədik və bir gecənin içində sovet ordusu Bakıya daxil olub vətəndaşlarımızı qırdı. Türkiyədə də qiyamçıların məqsədi bu imiş ki, medianı qapadıb, küçələrdə vətəndaşları qırıb, insanların meyitinin üzərindən hakimiyyətə gəlsinlər. Yəqin sonra da deyəcəkdilər ki, xalqı Ərdoğan hökuməti qırıb.

**"Parlament binası Türkiyə demokratiyasının beşiyidir. TBMM-in binasını bombalamaq, Türkiyədə demokratiyanı bombalayıb məhv etmək anlamına gəlir"**

❑ Nərgiz LİFTİYEVA
Fotolar: Məğrur MƏRDİNDİR

YENİ MÜSAVAT
N 156 (6477) 20 iyul 2016

# İşğalçı ölkə siyasi təlatümlər zolağında

**Ermənistanda, İrəvanın Erebuni rayonunda ötən bazar radikal müxalifətçilər tərəfindən post-patrul polku binasının ələ keçirilməsi ilə başlanan böhran qalır. Artıq dördüncü gündür ki, bir qrup polis girov saxlanmaqda davam edir. Müşahidəçilər Ermənistanda siyasi çalxalanmanın artıq başlandığı qənaətindədirlər.**




## Kreml generallarını qiyam qalxmış Ermənistana göndərir

### İrəvanda silahlı müxalifətçilərlə hakimiyyət arasında böhran dərinləşir; istefası tələb olunan Serj Sərkisyan polisləri 4 gündür girov saxlayan qiyamçılara vaxt qoydu; ölkədə siyasi terrorun “ayaq səsləri” eşidilməkdədir...

Son məlumatlara görə, “Qarətə yox!” adlı təşəbbüs qrupunun ötən gecə güclü polis mühasirəsinin qarşısına çıxan və radikal müxalifət lideri Jirayr Sefilyanın azad olunmasını tələb edən tərəfdarlarının sayı səhərə yaxın azalıb. Lakin nümayişçilər dünən də qiyamçılara qarşı silah tətbiq edilməsinə qarşı aksiya həyata keçiriblər. Etiraz aksiyasının iştirakçıları bütün siyasi məhbusların azad olunması, o cümlədən iyulun 17-də saxlanılan müxalifətçilərin azadlığa buraxılmasını tələb ediblər.

Bundan başqa, aksiya iştirakçılarının dilindən “Serj, rədd ol!” şüarları də səsləndirilir. Nümayişçilər həmçinin Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı hakimiyyətin apardığı siyasətə etiraz bildiriblər.

***

Bu arada hüquq müdafiəçisi Avetik İşxanyan Ermənistan polis rəisinin müavini Unan Poqosyan qarşısında aksiya iştirakçılarının tələblərini sadalayıb. Onun sözlərinə görə, nümayişçilər qiyamçılara qarşı silah tətbiq edilməməsini, habelə Jirayr Səfilyanın azad olunmasını tələb edirlər.

General Unan Poqosyan etirazçılar qarşısında çıxış edərək, tutulan şəxslərin azad olunacağına və onlara qarşı zor tətbiq edən polislərə qarşı xidməti təhqiqat başlanacağına söz verib. Poqosyan habelə, nümayişçiləri polislərə qarşı aqressiv davranmamağa çağırıb və polislərin insident zamanı döyüş yoldaşlarını itirdiklərini xatırladıb. O, danışıqların davam etdirildiyini və “güzəşt variantının ikitərəfli olmalı” olduğunu da söyləyib.

Qeyd olunur ki, nümayişçilərin tələblərinin bir qismi artıq yerinə yetirilib. Belə ki, “Tseqarqon” partiyasının lideri Şant Arutunyanın oğlu Şaqen azad olunub. Daha sonra aksiya Azadlıq meydanında davam edib.

***

Dünən - qiyamın üçüncü günü girovların azad olunması üçün Erebuni rayonuna əlavə olis qüvvələri cəlb edilib. Bundan duyuq düşən Azadlıq meydanındakı nümayişçilərin bir qismi oraya yönəlib. Silahlı qrupun üzvləri isə bir daha təslim olmayacaqlarını bildiriblər və hücum olacağı təqdirdə sonadək mübarizə aparacaqlar. Onlar hakimiyyətin dəyişdirilməsi və Jirayr Səfilyanın azad edilməsi tələblərindən geri çəkilməyəcəklərini bəyan ediblər.

Daha bir mühüm detal. Qiyamçılar öz hərəkətlərində ictimai dəstəyə arxalandıqlarını dönə-dönə bildirirlər. Yeri gəlmişkən, İrəvanda əksəriyyət üsyançılara qarşı silah işlədilməsinin əleyhinədir. Lakin polis polkovnikini itirən hökumət qüvvələri də uzun müddət bu vəziyyətlə barışa bilməz. Əks halda, Sərkisyan rejiminin zəifliyi haqda rəy güclənə bilər. Silah tətbiqi, binaya hücum isə etirazların güclənməsinə gətirəcək.

İstefası tələb edilən prezident Serj Sərkisyan baş verən insidentlə məhz belə bir qəliz duruma tuş gəlib. Onun durumunu daha da ağırlaşdıran başqa bir amil isə rəsmi İrəvanın Qarabağ məsələsində, nəhayət, konstruktiv mövqe tutmaq zorunda qalmasıdır. Əks halda, Qarabağda daha böyük müharibə qızışa bilər...

***

**“Ermənistanda fövqəladə vəziyyət yaranıb. Silahlı üsyan var, qan tökülməsi ehtimalı var. Güc strukturlarının nümayəndələri əsassız güc tətbiq edərək vəziyyəti daha da gərginləşdirirlər”.** Bunu “Birlik” partiyasının lideri, Ermənistanın keçmiş xarici işlər naziri Vardan Oskanyan yaydığı bəyanatda bildirib *(virtualaz.org)*.

Bəyanatda daha sonra deyilir: **“Belə bir vəziyyətdə artıq üçüncü gündür ki, baş nazir, parlament sədri və prezident susur. Dünyada elə bir başqa ölkə yoxdur ki, bu cür gərgin vaxtda ölkə rəhbərliyi xalqdan aralı dursun və sükutunu pozmasın. Prezident, parlament sədri, baş nazir, xalqla danışın, əks halda, sizin sükutunuz nə ölkənin daxilində, nə də xaricdə anlaşılmır”.**

Qəzet çapa gedərkən üsyançılarla hökumət təmsilçiləri arasında danışıqlar davam edirdi. Son məlumatlarda deyilirdi ki, polis binasını ələ keçirən silahlı şəxslər yerli vaxtla axşam (dünən-red.) saat 19:00-adək Ermənistan Milli Təhlükəsizlik Xidmətinin (MTX) tələblərinə cavab verməyə hazırdırlar. Bu barədə jurnalistlərə “Təsis parlamenti” müxalifət hərəkatının üzvü, ASALA terror təşkilatının keçmiş üzvü Alek Yeniqomşyan məlumat verib. Bununla belə, A.Yeniqomşyan MTX-nin əsas tələblərinin nə olduğunu açıqlamayıb. Onun sözlərinə görə, polis binasını ələ keçirənlər “Sasna tsrer” qruplaşmasının üzvləridir.

***

Bu arada - Ermənistandakı qiyam fonunda, Rusiya Silahlı Qüvvələrinin Operativ və Taktiki Baş İdarəsinin nümayəndə heyəti Ermənistana gəlib. Səfər iyulun 22-dək davam edəcək. Bu barədə Ermənistanın Müdafiə Nazirliyindən məlumat veriblər. Məlumatda bildirilir ki, səfər zamanı cari məsələlər, həmçinin Rusiya və Ermənistan Silahlı Qüvvələrinin birləşdirilməsi barədə razılaşmanın imzalanmaq üçün hazırlanması üzrə danışıqlar aparılacaq.

Kremlin öz generallarını həssas bir dönəmdə, üstəlik də Türkiyədəki uğursuz hərbi çevriliş cəhdindən dərhal sonra Ermənistana göndərməsi təsadüfə oxşamır və heç şübhəsiz, başqa hədəflərə də hesablanmış ola bilər. İstisna deyil ki, Moskva bu yolla həm də forpost Ermənistanda hərbi ab-havanı, siyasi qüvvələr nisbətini öyrənmək və fors-major vəziyyətlərdə ən optimal çıxış yolunu dəqiqləşdirmək niyyətindədir.

Başqa versiyalar da var. İş ondadır ki, rus generalları özləri ilə imzalamaq üçün indiyədək naməlum olan “Ermənistan və Rusiya silahlı qüvvələrinin birləşmiş qruplaşması haqqında” adlı sənədi gətiriblər. Bu fakt siyasi dairələrdə ciddi narahatlığa səbəb olub və bəzi yerli ekspertlər hesab edirlər ki, Serj Sarkisyan ordunu da ruslara satıb.

Mövzuya qayıdacağıq.

❑ **Siyasət şöbəsi**



# Məşhur ekstradisiya qalmaqalları

## Fətullah Gülən Türkiyəyə veriləcəkmi?

**Türkiyədəki hərbi çevriliş cəhdindən dərhal sonra qiyamçı generalların ABŞ-da mənzillənən Fətullah Gülənlə əlaqələri haqda xəbərlər dolaşmağa başladı. Türkiyə rəsmiləri də belə iddialar səsləndirdilər.**

Ardından Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ rəsmilərinə səslənərək “Pensilvaniyadakı o şəxsi Türkiyəyə təslim edin. Əgər biz strateji tərəfdaşıqsa, bu tələbimizi yerinə yetirin. Siz bizdən hansı terroristi istədiniz, biz təhvil vermədik? İndi də terrorçu siyahımızda yer alan o şəxsi bizə təslim edin” söylədi. ABŞ rəsmilərinin cavabı da özünü gözlətmədi - Fətullah Gülənin ekstradisiyası üçün tələb edilən sənədlər təqdim ediləcəyi halda məsələnin müzakirə olunacağı açıqlandı.

Türkiyənin ABŞ-dan Fətullah Gülənin təhvil verməsini tələb etməsi - ekstradisiya mövzusunu aktuallaşdırıb. Bu gün dünyanın Rusiya və ABŞ kimi hegemon dövlətləri ən müxtəlif ittihamlarla axtardıqları şəxslərin ekstradisiyasını tələb edirlər. Məsələn, 2006-cı ildə WikiLeaks saytını yaradan Culian Assanc Böyük Britaniya ilə ABŞ arasında “nifaq alması”na çevrilib. Assanc 2010-cu ildə ABŞ-ın hərbi sirlərini yayandan sonra təqiblərdən, həbs olunmasından çəkinərək Ekvadorun Londondakı səfirliyinə sığınıb. Onun ekstradisiyası üçün ABŞ-ın səyləri nəticə vermir.

2013-cü ildə ABŞ xüsusi xidmətlərinin keçmiş əməkdaşı Edvard Snouden Rusiyaya qaçıb. Qaçarkən onun əlində ABŞ-ın hərbi kəşfiyyat əməliyyatları ilə bağlı 1,7 milyona yaxın fayl olub. Sonradan Snoudenin yaydığı sənədlər sırasında ABŞ-ın Almaniyanın baş naziri Angela Merkelin və bir sıra Avropa liderlərinin, o cümlədən beynəlxalq təşkilatların rəhbərlərinin mobil telefonlarının izlədiyi barədə sensasion material da var idi. ABŞ bu qalmaqalı yumşaltmaq istəyərək belə bir dinləmələrin təhlükəsizlik məqsədi ilə olduğunu etiraf etmək zorunda qalmışdı.

Snouden qalmaqalı yaşandığı bir vaxtda Rusiya Antidopinq Komitəsinin rəhbəri Qriqori Rodçenkov ABŞ-a sığınaraq Rusiyada 2014-cü ildə keçirilən qış olimpiadasında azı 15 rusiyalı idmançının dopinqdən istifadə etdiyini açıqladı. Böyük qalmaqala səbəb olan bu açıqlamadan sonra Rusiya Qriqori Rodçenkovu ABŞ-dan tələb etməyə başladı. Bu gün də Qriqori Rodçenkov Rusiyaya təhvil verilməyib.

ABŞ-la Rusiya arasında daha bir ekstradisiya dartışmasının az qala 11 yaşı var. 2005-ci ildə ABŞ xüsusi xidmət orqanları dünyadakı müharibə ocaqlarında tərəf olan dövlətlərə sovetdənqalma hərbi təyyarələr və silah-sursat satan Rusiya vətəndaşı Viktor Butu həbs ediblər. Bundan sonra Rusiya tərəfi onun ekstradisiya olunması üçün sənədləri ABŞ-a göndərib. Lakin ABŞ ədliyyə orqanları V.Butun ABŞ-da qətl ittihamı ilə 25 illik həbsə məhkum edildiyini əsas gətirməklə onu təhvil vermirlər. V.Butun barəsindəki məhkəmə hökmü də Rusiya tərəfinə təqdim edilmir. Odur ki, illərdir dartışma davam edir.

Bu baxımdan, ABŞ-dan F.Gülənin tezliklə ekstradisiya olunacağını gözləmək sadəlövhlük olardı.

❑ **E.HÜSEYNOV**

**Türkiyədə yaşayan azərbaycanlı politoloq Toğrul İsmayıl qardaş ölkədə baş verənlərlə əlaqədar "Yeni Müsavat"ın suallarını cavablandırıb. İlginc müşahidələr, maraqlı şərhlərlə zəngin olan müsahibəni diqqətinizə təqdim edirik:**

# "Türkiyədə gerçək mənada xunta quruluşuna qarşı bir xalq direnişi var idi"

## Toğrul İsmayıl: "Mənim ən sevdiyim, dəyər verdiyim tələbələrimdən biri öldürüldü, digəri yaralandı"

*- Toğrul bəy, bildiyimə görə, sizin yaşayış yeriniz 15 iyul gecəsi ən gərgin hadisələrin yaşandığı ərazidədir. İstərdim şəxsən müşahidə etdikləriniz barədə danışasınız. Həmin gecə gözünüzün qabağında nələr baş verdi?*

- Axşam saat 09.30 radələrində təyyarələr çox aşağıdan uçmağa başladılar. Bir ay sonra keçiriləcək Zəfər bayramı ərəfəsində təyyarələrin məşq uçuşlarını görmüşük. Amma bunların uçuşu çox fərqliydi, həm də gecəydi. Təbii ki, bu, nədir, nə baş verir deyə, hamıda şübhə yarandı. Yaşayış evlərinin üstündən çox alçaqdan uçurdular. Nələr baş verdiyi haqda maraqlandığımız zaman xəbərlər gəldi ki, Boğaziçi, Sultan Fateh Məhəmməd körpüləri təktərəfli olaraq bağlanıb, Avropadan Asiyaya keçid qapadılıb. Əvvəlcə düşündük ki, yəqin antiterror əməliyyatıdır. Amma az sonra baş nazir televiziya ilə bəyan etdi ki, ölkədə çevriliş cəhdi var. Bunun ardınca xuntaçılar televiziyanı tutdular, ordan elan etdilər ki, ölkədə hakimiyyəti tam ələ alıblar. Hökumət isə bildirdi ki, ölkə onların nəzarətindədir. Düzdür, kimin dediyinin daha doğru olduğunu bilmək çətin idi. Bundan sonra isə Milli Məclis və Silahlı Qüvvələrin Baş Qərargahının qarşısındakı yolun bağlı olduğu, hər tərəfdən qarşıdurma xəbərləri gəldi. Hərbi çevriliş elanından sonra təyyarələr daha alçaqdan uçmağa başladı, uçuşlar aktivləşdi. Hətta helikopterlərdən bəzi yerlər vurulmağa başladı, səsləri aydın eşidirdik. Çünki mənim evim həm Əmniyyət Müdürlüyü, həm MİT, həm də Jandarma Genel Kurmanlığının arasında yerləşir, səsləri də rahatlıqla eşidirdik. Çox vahiməli partlama səsi gəlirdi, sanki evin içində bombalar partlayırdı. Ankaranın üstündə 2 təyyarə uçurdu, helikopterlərsə çox idi, özü də atırdılar. Bizim ətrafda dükan və evlərin pəncərələri qalmadı, hamısı qırılıb-dağıldı. Parlamentin giriş qapısını öncə tankla vurdular, sonra da təyyarələrdən raket atıldı. Eyni zamanda vertolyotlardan atəş açırdılar. Baş Qərargah, parlament, Prezident Sarayı atəşə məruz qaldı. Səhər saat 06.16-da Prezident Sarayının yanındakı bir yeri də vurdular, ölən və yaralananlar oldu. Atəşlər nəticəsində çoxlu sayda heç bir günahı olmayan, dinc insan öldü. Bundan başqa, şəhərə tanklar gəldi və yolda nə qədər maşın vardısa, hamısını əzib keçmişdilər, onların bir çoxunun fotosunu özüm çəkmişəm. Amma çevriliş cəhdi edənlərin əlindəki hərbi texnikanın sayı çox deyildi. Həmən an mən hiss etdim ki, çevriliş baş tutmayacaq. Çünki ordunun hamısını tərəflərinə çəkə bilmədilər. Baş Qərargah daxilində hər şey çevriliş tərəfdarlarının istəyincə olsaydı, onların arasında qarşıdurma da baş verməzdi.



**"Ankarada bomba partladan terrorçularla Türkiyə parlamentini bombalayan terrorçu arasında fərq görmürəm"**

*- Baş verənlərə fərqli münasibət var. Ona görə də xahiş edirəm müstəqil siyasi analitik olaraq deyəsiniz, dövlət çevrilişi baş tutsaydı, Türkiyənin taleyi necə olardı?*

- Çox bərbad. İqtisadiyyat çökərdi, ölkə xaotik bir vəziyyətə sürüklənərdi, hətta məncə, vətəndaş müharibəsi də baş verə bilərdi. Diqqət etdinizsə, xalq çevrilişi dəstəkləmədi. Ərdoğanın çağırışı, liderin arxasınca getmək və s. məsələlər effektiv rol oynadı, bu, ayrı. Amma məsələ burasındadır ki, hamı bir nəfər kimi mövqe qoydu. Azərbaycandan baxanda elə görünə bilər ki, sanki AKP-lilər, yaxud Ərdoğan tərəfdarları küçələrə çıxdı. Amma çevrilişə qarşı çıxanlar arasında çoxlu ülkücülər, MHP-lilər, liberallar, digər insanlar var idi. Həmçinin heç bir partiyaya aid olmayan insanlar, amma ordusunu sevənlər var idi orada. Adamlar deyirdi ki, baş qərargah rəisi hardadır, gedək, alaq, qurtaraq! Ölümündən qorxmayan, əliyalın tankın üstünə gedən, əsgərinə sahib çıxan insanlar var idi. Bəlli media orqanları - xüsusilə də Qərb və Rusiyaya məxsus olanlar - xalq hərəkatını kiçiltmək üçün "İslami hərəkat" və s. kimi təqdim etməyə başladılar. Elə deyil. Türkiyədə gerçək mənada xunta quruluşuna qarşı bir xalq direnişi var idi. Qiyamçılara simpatiyası olan çox az adamların olması mümkündür. Amma ümumiləşdirəndə hər yerdə xalq ayağa qalxdı. Generalitet tam olaraq çevrilişə sahib çıxmadı, digər tərəfdən də əsgəri tam şəkildə öz tərəflərinə çəkə bilmədilər. Əsgərlər əvvəl təyyarələri bombalarla təmin edirdilərsə, sonra baxdılar ki, bunlar çevrilişdir, qeyri-qanuni hərəkətlərdir, canları bahasına, hətta silah gücünə belə, bundan imtina etmişdilər. Xuntaçılar hətta öz yoldaşlarını belə vurmuşdular. Məsələn, bəzən tankın içində, digər yerlərdə ölən əsgərləri göstərirlər. Onların bir qismini xuntaçılar öldürüblər, xalqa atəş açmadıqları üçün. Təbii ki, öz xalqına silah qaldırmış, bombalamış qatillər, canilər layiqli cəzalarını almalıdırlar. Məncə, onların heç birinin terrorçulardan fərqi yoxdur. Mənim ən sevdiyim, dəyər verdiyim tələbələrimdən biri öldürüldü, digəri yaralandı. Evimdə yaşadığım o dramanı anlada bilmərəm. Mən Ankarada bomba partladan terrorçularla Türkiyə parlamentini bombalayan terrorçunun arasında heç bir fərq görmürəm.

*- Çevriliş etmək istəyənlərin işində İŞİD-çi, PKK-lı ola bilərmi?*

- Yox, əksəriyyəti camaatçı idi, Fətullah Gülənin adamları idi.

*- Elə isə necə olub ki, təmizlənmələrə rəğmən indiyə qədər orduda bu qədər Gülənçi qala bilib?*

- Onları necə çıxartmaq olardı? İnsanı Fətullahçı olduğuna görə işdən ata bilməzsən ki. Bir təşəbbüs olmalıdır ki, onu işdən atmaq mümkün olsun. Çox ehtimal ki, bu addımlar atılacaqdı və həmin qüvvələr bunu hiss etmişdilər, ona görə də ayağa qalxdılar. Hansı ki, çevriliş etmək üçün ölkədə zəmin, şərait yox idi.

*- Türkiyənin hüquq-mühafizə orqanları bu boyda əməliyyatdan doğrudanmı tam məlumatsız olub, yoxsa müəyyən bilgilər var imiş?*

- Bu çevrilişin baş tutmamasının əsas səbəbləri tədricən ortaya çıxır. Birincisi, bunlar səhərə yaxın çevriliş etməliydilər. MİT saat 16-da olaydan xəbər tutur. Ona görə də çevrilişlə bağlı əməliyyatın zamanı irəli çəkilir. İkincisi də gözlənilməz bir şey olur. Xuntaçı generallardan biri Semih Terzi tərəfdarları ilə birgə Özel Kuvvetler Komutanlığını ələ keçirmək istəyəndə ordakı yavər silahını çəkərək onu alnından vurub öldürür. Düzdür, özü də atışmada öldürülür. Dolayısı ilə həmin yavərin etdiyi xuntanı tamamilə başsız qoyur. Çünki bu general xuntanın əsas liderlərindən biri idi. 15 dəqiqəlik zaman çərçivəsində Ərdoğan məlumatlanır və gizlənə bilir. Daha sonra ən önəmli məsələlərdən biri budur ki, 1-ci ordu generalı qiyamçılara cavabında "düşünərəm" deyir, amma Ərdoğana sahib çıxır. Hətta Ərdoğan Ankaraya getmək istəyəndə deyir, yox, Ankara təhlükəsiz deyil, İstanbula uç, mən təminat verirəm! Kənardan belə görünür ki, bunu kimsə səhnələşdirib. Xunta baş tutmadığı üçün bu, şouya bənzəyir. Yoxsa çox ciddi hadisələrdir. Bunlar dəmir yolu ilə çox ağır topları gətirirdilər, yolda polis tutub onları endirdi. Bir çox yerlərə zərbə endirmişdilər. Sadəcə, planlarından öncədən xəbər tutulduğu üçün çevriliş istəyi uğursuzluqla bitdi.

*- Qiyamçıların istəyi reallaşsaydı, onların prezident görmək istədikləri namizəd olubmu?*

- Bilmirəm. Bunu ancaq onlar özləri deyə bilər. Bir neçə generalın üzərindən çıxmış siyahılarda kimin hansı vəzifəyə gətiriləcəyi əksini tapıbmış.

*- Deməli, bu prosesdə hansısa siyasi müxalif qüvvəyə "stavka" olmayıb?*

- Yox. Ümumiyyətlə, hərbi çevrilişlərdə siyasilər yer almaz. Belə hallarda siyasilərə güvənmirlər.

*- Fətullah Gülənin təhvil verilməsi ilə bağlı Vaşinqton qarşısındakı tələbləri Türkiyə-ABŞ münasibətlərini kəskin şəkildə soyuda bilərmi? Hətta bu arada Con Kerri Türkiyəni NATO-dan çıxarılacağı ilə hədələyib...*

- Soyuqluq əvvəldən var idi. Amerika bir yandan "müttəfiqim" deyir, digər tərəfdən bölücü qrupları dəstəkləyir. Məsələn, Suriyada olduğu kimi, terrorçu qrupları yanına alaraq öz bildiyini edir. Yəni Amerika bölgədə öz oyununu oynayır. Öz oyununu oynadığı üçün də müttəfiqləri ilə münasibətlərdə bu cür soyuqlaşmanın olması təbiidir. Ancaq zənn etmirəm ki, bir Fətullah Gülənə görə iki ölkə arasında ciddi problemlər yarana bilər. Bu, hüquqi prosesdir. Mən ekspert olaraq hiss edirəm ki, Amerika Fətullah Güləni Türkiyəyə verməK istəmir. Verilən dəstəyə baxın, "Türkiyə demokratiyadan yanadır", yaxud NATO məsələsi ilə bağlı deyilənlər... Bu cür fikirlər bazarlıq deməkdir. Türkiyənin qarşısına ön şərtlər qoyaraq nəsə etmək istəyirlərsə, bu, yolverilməzdir. Türkiyə NATO-dan çıxsa nə olar, NATO-da qalsa, nə olar? Sanki NATO-dan çıxan dövlətlər hamısı dağılıb məhv olub.

*- Çevrilişdən sonra Türkiyədə ölüm hökmünün bərpası məsələsi gündəmə gəlib. Bu, nə qədər realdır?*

- Bu, ciddi siyasi məsələdir. Ölüm hökmü bir çox ölkələrdə, Rusiyada, elə ABŞ-ın özündə var. Avropa Birliyində yoxdur və Türkiyə Avropa yolunda idi deyə, ölüm hökmünü ləğv etmişdi. İndi geri atarmı, bunu demək çətindir. Məncə, hazırda deyilənlərin hamısı insanları sakitləşdirmək, rahatlamaq üçündür. Mitinqlərdə bəlli adamların bu barədə tələblər səsləndirməsi hələ Türkiyə toplumunun edam hökmünü istəməsi anlamına gəlmir. Türkiyə hüquqi dövlətdir və fikrimcə, hər şeyi hüquq çərçivəsində yoluna qoyacaq. Beynəlxalq hüquq var, üzərinə götürülən öhdəliklər, anlaşmalar var. Bunlar asan məsələ deyil. "Biz bunu belə edəcəyik" deməklə iş bitmir. Bu daha çox daxildəki ictimai rəyi rahatlatmağa xidmət edir. Diqqət edirsinizsə, prezident çox məharətlə bu məsələni parlamentin üstünə atdı, özünü daha güclü göstərdi. Dedi, "mən imzalaram, amma parlament qərar versin". Yəni topu parlamentin üstünə atdı.

*- Türkiyədə Azərbaycandakı mövqelərə münasibət necə qarşılandı?*

- Rəsmi Bakı çevriliş cəhdini qınadı, burda da xəbərlərdə verildi, normal yanaşıldı. Amma Türkiyədəki hadisələrin Azərbaycana təsiri başqa məsələdir. Allahdan hadisələr uzun sürmədi və olan münasibətlər, əlaqələr, məncə, daha da yaxşı davam edəcək. Bu proseslər Azərbaycan ictimaiyyətinə təsir edir. Müstəqil yayın quruluşları var, oturub izləsinlər. Yoxsa sosial şəbəkədə hətta çox ciddi saydığım bəzi şəxslər də bir foto paylaşır, "vay İŞİD-çilər Türkiyəni ələ keçirdi" kimi çox səviyyəsiz şərhlər yazırlar. Bu, onu göstərir ki, Azərbaycan gerçəkdən Türkiyədə nələr yaşandığını, nələrin baş verdiyini hələ də anlamır. İkincisi, məncə, Azərbaycan xalqı demokratiyanın yanındadır. Ona görə də qardaş ölkədə xalq hərəkatının zəferinin azərbaycanlıları sevindirməsi lazımdır. Amma hardasa bunun əksini görürük. Həyatında bir dəfə Türkiyədə olmayan, Türkiyə ordu sisteminə bələd olmayan insanların "yox, bu, iqtidarın ssenarisidir", "Ərdoğan bunu təşkil etdi" söyləməsi Türkiyəni banan ölkəsi kimi təqdim etməkdir. Belə çıxır ki, bir nəfər hamını barmağına dolayıb. Belə şey olarmı? Bu qədər qeyri-ciddilik olmaz.

*- Yəqin ANS-in qapadılması da Türkiyədə müzakirə olunur...*

- Bir sujetin verilməsi ANS-in bağlanmasına səbəb olubsa, bu, Azərbaycanın daxili məsələsidir. Mən inanmıram ki, Türkiyə deyib bunu belə edin. Hər halda, həssas məqamdır. ANS-in də bunu göz önünə alması gərəkdir. Bu, ANS-in daxili problemidir, özləri bilər. Məncə, ANS Amerikadan reportaj verməkdənsə, Türkiyədən canlı reportaj versə, yaxşı olardı, yaxud gəlib burda prezident, yaxud baş nazirdən münasibət alardı. Yəni operativlik Amerikada oturub Pensilvaniyadakı adamdan müsahibə almaq deyil, hadisə yerindən xəbər verməkdir. Nə məqsədə xidmət edirlər, özləri bilər. Amma bunu deyə bilərəm ki, ANS-in bağlanması Türkiyənin təkidi və tələbi ilə deyil, Azərbaycandakı daxili siyasi tələb və istəklə olub.

**Elşad PAŞASOY**

# Araz Əlizadə müxalifəti aşağıladı - cavab gecikmədi

## Tural Abbaslı: “Tərbiyəsizin qarşısında...”
## Həsrət Rüstəmov: “Dediklərini özünə qaytarıram”
## Xəzər Teyyublu: “Özü yaxşı bilir ki, o kimdir”



**Azərbaycan Sosial Demokrat Partiyasının (ASDP) sədri, deputat Araz Əlizadə Azərbaycan müxalifətini növbəti dəfə aşağılayıb. Müxalif camiəni “gədə-güdə” adlandıran ASDP sədrinin fikirləri demokratik düşərgə daxilində hiddət doğurub.**

Dünya ölkələri daxilində baş verən çaxnaşmalardan müxalifətin istifadə etməyə çalışdığını deyən deputatın əsas narazılıq doğuran fikirləri bunlardır: “Burada qanun pozuntusu yoxdur, lakin əxlaqsızlıq elementləri var. Bizim qəribə radikal müxalifətimiz var. Sabah, Allah eləməsin, ermənilər hücuma keçib gəlib Yevlağa çatsalar, radikal müxalifət üçün bayram olacaq. Necə ki, onlar 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Qarabağda hər bir məğlubiyyətdən hakimiyyətə gəlmək üçün istifadə etməyə çalışırdılar, indi də bu cür şeylərdən istifadə edib, hakimiyyətə gəlmək istəyirlər. Lakin onların arzuları ürəklərində qalacaq. Artıq Azərbaycan oturuşmuş və sabit dövlətdir. Gədə-güdələr bir daha hakimiyyətə gələ bilməyəcəklər”.

A.Əlizadənin təhqirlərinə müxalifətin cavabı gecikmədi.

**AĞ Partiyanın sədri Tural Abbaslı “Yeni Müsavat”a açıqlamasında belə şəxslərə ən tutarlı cavabın susmaq olduğunu bildirdi:** “Araz Əlizadənin kimliyi hər kəsə çoxdan məlumdur. Son prezident seçkilərində qondarma namizəd kimi iştirak edərək, bütün tərbiyəsizliyini xalqa göstərdi. Baxmayaraq ki, milyonlarla xalq prezidentliyə iddiaçıların debatlarına baxırdı, amma o, tərbiyəsizliyindən çəkinmədi. Əslində 2015-ci ildə məhz o tərbiyəsizliyinin mükafatı olaraq mandat qazandı. Bu gün də parlamentdə həmin mükafatla təmsil olunur. Bu şəxs yaxşı bilir ki, onun hakimiyyət üçün dəyəri etdiyi tərbiyəsizliklərdir. O da nəyin hesabına o yerə gəlib çıxıbsa, buna uyğun şəkildə yoluna davam edir. Getdikcə xoşa gəlmək üçün nalayiq ifadələrinə ara vermir. Çünki intellektual səviyyəsi yoxdur ki, xalqın xeyrinə olan qanun layihələri ilə gündəmə gəlsin. Elə bir cəsarəti də yoxdur ki, hakimiyyətin hansısa addımlarını tənqid etsin. Məcburən unudulmamaq, növbəti dönəmlərdə hakimiyyətin ona siyasi pay atması üçün belə səviyyəsiz cümlələrə yol verir. Onun müxalifəti təhqir etməsi ilə bağlı Milli Məclisin sədri Oqtay Əsədova müraciət etməyin mənası yoxdur. Yəqin ki, Araz Əlizadə belə ifadələr işlətmək icazəsini də alıb. Sadəcə, xalq bilməlidir ki, hansı səviyyəyə malik şəxslər parlamentdə təmsil olunurlar. Belə səviyyəsiz insanlar nəinki parlamentə, siyasi arenaya belə buraxılmamalıdır”.

**ADP sədrinin müavini Həsrət Rüstəmov A.Əlizadə kimi şəxslərin siyasətdə olmasından təəssüfləndiyini dilə gətirdi:** “Siyasətdə olan hər bir şəxsə hörmətlə yanaşmaq lazımdır. Təəssüf edirəm ki, Araz kimi şəxslər siyasətdə təmsil olunurlar. Belə təhqirlərə yol vermək həmin informasiyanı oxuyanlara qarşı da səviyyəsizlikdir. Onun fikirləri təəccüblü deyil. Açığı, onun dediklərindən o qədər də xəbərdar deyiləm. Çünki Araz Əlizadə başda olmaqla, bəzi şəxslər var ki, ümumiyyətlə, onların adı keçən məlumatları oxumuram. Əminəm ki, çoxları da belə edir. Onun fikirlərini şiddətlə qınayıram. Konkret ünvana deyilibsə, məhkəməyə verilməlidir. Ümumi ünvana deyilibsə, dediklərini özünə qaytarıram. Bir deputat bunu edirsə, daha acınacaqlıdır. Parlament rəhbərliyi mütləq bu məsələyə diqqət yetirməlidir. Əgər onunla bağlı ümumi müxalifətin Oqtay Əsədova müraciət təşəbbüsü olarsa, ilk qoşulanlardan olarıq”.

**KXCP sədrinin müavini Xəzər Teyyublu isə ASDP sədri barədə daha sərt danışdı:** “Azərbaycan milli-azadlıq hərəkatına, müstəqilliyimizə Araz Əlizadə daim çamur atıb. Bu da onun xəstə təfəkkürlü şəxs olmasından irəli gəlir. O, sanki belə məsələlərdə tapşırıq yerinə yetirən obraz təsiri bağışlayır. Düşünmürəm ki, hazırda bir qarış belə torpaq itirə bilərik. Əksinə, tezliklə əsgərlərimiz torpaqlarımızı azad edəcəklər və o zaman Araz Əlizadə kimilərin bağrı çatlayacaq. Zaman gələcək ölkəmizdə dünyəvi hökumət formalaşacaq. Bax o zaman Araz Əlizadə Bakı küçələrində xəcalətli formada gəzəcək. Belə fikirlər bildirməklə gündəmdə qalmaq istəyir. Bunun üçün şəxsiyyətini ortaya qoyur. Yaramaz hərəkətlər yalnız onun kimilərindən çıxar. Araz Əlizadənin özü yaxşı bilir ki, o kimdir. Bundan sonra da ondan bu cür təhqirlər gözləmək mümkündür”.

❑ **Cavanşir ABBASLI**

# “Ölkə müxalifəti fəaliyyətsizdir” iddiasına reaksiyalar

## Partiya yetkililəri planlarından, ekspertlər isə partiyaların durğunluğundan danışırlar

**Ölkə müxalifətinin son aylarda ciddi mənada heç bir fəaliyyəti nəzərə çarpmır. Ümumilikdə il yarımdan artıq baş verən birinci devalvasiyanın, işsizliyin, ixtisarların, bahalaşmanın fonunda da müxalifətin ciddi hərəkətliliyi ortaya çıxmayıb. Partiyaların siyasi fəaliyyətləri demək olar ki, sosial şəbəkələrdə mövqe ortaya qoymaqla, həmçinin vacib hadisələrlə bağlı bəyanat verməklə yekunlaşır. Ölkə müxalifəti sanki mübarizəsini uzun müddətə dondurub. Müxalifət partiyalarının yetkililərinin yay ayları ilə bağlı musavat.com-a açıqladıqları planlarından da görünür ki, onlar ciddi və aktiv mübarizə tərəfdarı deyillər. Ekspertlər isə burada bir neçə səbəb göstərirlər.**



**Müsavat Partiyasının İcra Aparatının rəhbəri Gülağa Aslanlı** məsələ ilə bağlı musavat.com-a bildirib ki, partiya özünün qəbul etdiyi fəaliyyət proqramına uyğun olaraq, işini davam etdirir: “Xüsusi olaraq bu yay aylarında istirahət etmək fikrimiz yoxdur. İşlərimizi bir daha qəbul olunmuş fəaliyyət proqramı istiqamətində davam edirik. Rayon təşkilatlarında konfrans nəzərdə tutulubsa, olacaq. Partiya Divanının toplantıları davam edir. Rayon təşkilatlarının Sədrlər Şurası fəaliyyətinə davam edəcək, şura iclasları davam etdiriləcək. Yayda da cari işlərlə məşğul olacağıq”.

**G.Aslanlının sözlərinə görə, işığın qiyməti ilə bağlı bahalaşmaya da rəy bildiriblər:** “Bununla bağlı partiya Divanında məsələni müzakirə edib etiraz bildirmişik. Əhalinin bu isti günlərdə etiraz aksiyasına münasibəti dəqiqləşəndən sonra biz etiraz aksiyası məsələsinə bir daha qayıdacağıq”.

**KXCP sədrinin müavini Xəzər Teyyublu isə qeyd edib ki, havaların isti olmasına baxmayaraq, partiya fəaliyyətini davam etdirir:** “İdarə Heyətinin iclasları keçirilir. Bir neçə gün sonra partiya sədrinin gənclərlə görüşü olacaq, ona hazırlaşırıq. Təşkilati işlərimiz var. Rayon şöbələri ilə əlaqəli işlər var. Bu işlərin yaza, qışa aidiyyəti yoxdur. Həmişə olduğu kimi, iş ahəngliyi var. KXCP üçün həmişə bu işlər sabit şəkildə davamlı olub. Həm də dünyada gedən ictimai-siyasi vəziyyətə münasibət, bununla bağlı müzakirələrimiz də olur. Hansını mətbuatda vermək məsləhətdirsə, veririk. Bu formada təşkilati və siyasi işlərimizi davam etdiririk”.

**Qeyd edək ki, elektrik enerjisinin qiymətinin artırılmasına KXCP də etiraz olaraq bəyanat verib. X.Teyyublunun sözlərinə görə, bu məsələ partiyanın idarə heyətində müzakirə olunub:** “Bir müddət öncə suyun da qiyməti artırılmışdı. Ümumiyyətlə, kommunal xərclərin qaldırılması getdikcə ağır sosial duruma gətirib çıxaracaq. Narahatlığımızı bildiririk. Ölkədə çox ciddi ixtisarlar başlayıb, işsizlikdir. Problemlər sosial təlatümə gətirib çıxaracaq. Hakimiyyət təcili tədbirlər planı həyata keçirməlidir”.

**O, aksiyaların keçirilməməsinə də aydınlıq gətirib:** “Ölkədə elə bir vəziyyət yaranıb ki, siyasi durğunluqda konkret olaraq Azərbaycan vətəndaşı, ümumiyyətlə, öz haqqını müdafiə etmək baxımından çox qorxur, gözü qorxub. Onun qarşısı hər hansısa formada alınıb. Azərbaycan insanı bu gün haqqını müdafiə etməkdən çəkinir. Bu, o demək deyil ki, xalq müxalifətə inanmır. Xalq müxalifətə inanır. Amma özü bu gün ona dəstək verə bilmir. Siyasi durğunluq vəziyyətində avtoritar qaydada yaşamalı olan Azərbaycan vətəndaşı hədsiz qorxaq bir vəziyyətə gətirilib. Partiyalar xalqı səfərbər edib öz etirazını cəmləşdirə bilmir. Hər bir məsələnin tarixi bir zamana ehtiyacı var”.

**Ümid Partiyasının sədr müavini Xanlar Abbas isə qeyd edib ki, partiya cari işlərlə məşğuldur:** “Əsas işimiz təşkilatlanmadan ibarətdir. Hazırda etiraz aksiyası nəzərdə tutmuruq. Ümumiyyətlə, indiki dövrdə etiraz aksiyası məqbul deyil. Düzdür, siyasi arenada sakitlikdir, durğunluqdur. Bu da təkcə Ümidlə bağlı deyil. Bütün müxalifətlə bağlıdır. Ümumi siyasi arenada nisbi sakitlikdir. Əsasən yay ayları ilə bağlıdır. Amma müxalifət fəaliyyətsizdir deməzdim. Rayon təşkilatları ilə iş istiqamətində, təşkilatlanma istiqamətində fəaliyyətimizi həyata keçiririk”.

**Ekspert Natiq Miri isə musavat.com-a bildirib ki, səbəblər çoxdur, əsas səbəb isə müxalifətin özü ilə bağlıdır:** “Əvvəla, burada birinci amil müxalifətin zəifliyi ilə bağlıdır. Çünki həm sosial etirazları, həm də siyasi tələblərlə hansısa etiraz aksiyaları keçirmək üçün ciddi güc olmaq lazımdır. Yəni ən azından cəmiyyət o gücün küləyini hiss etsin və gələcəkdəki etiraz aksiyalarında bu gücə inanaraq, arxasınca getsin. Bu gün o güc yoxdur. İkinci məsələ ondan ibarətdir ki, müxalifət həm də hakimiyyətə müəyyən mənada regionda və ölkədə ictimai-siyasi vəziyyət dəyişənə qədər bir növ möhlət vermiş durumdadır. Söhbət ondan gedir ki, hakimiyyət indiki şəraitdə iqtisadi islahatlar adına müsbət mənada heç bir nəticə əldə edə bilməyib. Proses davam edir. Açığı, ciddi bir nəticənin əldə olunacağı ehtimalı da çox aşağıdır. Ona görə də müxalifət müəyyən mənada bir növ gözləmə mövqeyindədir. Təbii ki, ard-arda hakimiyyətin buraxdığı səhvlərdən gələcəkdə yararlanmaq istəyini ortaya qoya bilər. Ancaq əsas məsələ təkcə hakimiyyətin buraxdığı yanlışlarla, ölkəni doğru idarə edib-etməməsi məsələsi ilə bitmir. Həm də ictimai rəydə müxalifət ciddi mənada dəstək qazanmalı və inam qazanmalıdır. Çox maraqlıdır ki, bu gün ictimai rəydə müxalifət demək olar ki, yoxdur. Əgər bu gün ictimai rəydə müxalifət yoxdursa, demək, müxalifət siyasi dairəsinə inam da yoxdur. Bu da siyasi fəaliyyətdə həlledici faktordur. Ona görə də məhz bu səbəblər müxalifəti bu gün çox süst halda göstərir. Fəaliyyətinə müəyyən mənada kölgə salır. Ayrıca, açığı, regionlarda müxalifətin təbliğat nöqteyi-nəzərdən fəaliyyətini də biz görmürük. Bu yöndə hər hansı bir haqsızlıqlara hansısa bir hərəkətlənməni müşahidə etmirik. Bu gün müxalifət yalnız şifahi, yaxud yazılı bəyanatlar, eyni zamanda müəyyən təhlil, araşdırmalardan o tərəfə keçmir. Müxalifətin fəaliyyəti şifahi bəyanatlar səviyyəsində məhdudlaşır ki, burada da ictimai rəyə ciddi mənada girmək çox çətindir”.

❑ **Röya RƏFİYEVA**



# Ölülərin kitabı

Zamin HACI
zaminhaci@gmail.com

**Rəhbərlik konstitusiyaya dəyişiklik etmək istəyir, xalqımız da bundan çox məmnundur. İlk növbədə belə bir ana qanunu olmasını yadımıza saldıqları üçün. 2008-ci ildən bəri - o vaxt referendum qayırıb nələrisə dəyişmişdik - konstitusiyaya əl dəyilmirdi, toz basmışdı, hətta etibarlı qaynaqdan damcılayıb bu isti günlərdə qəlbimizi sərinlədən xəbərə görə, konstitusiyamızın bəzi səhifələrini siçan yeyibmiş. Bir neçə maddə çürüyübmüş. Hansısa bölümlər kiflənibmiş. İndi havaya verəcəklər, yaxşı olacaq.**

Ancaq adamlar bir az təşvişə düşürlər, fikirləşirlər görəsən bu işləməyən qanunu dəyişmək hökumətin nəyinə lazımdır. Axı onlar bizim rəyimiz olmadan da kefləri istəyəni edirlər. Bizim heç bələdiyyə üzvünə köməkçi seçmək haqqımız yoxdur, gəl gör beş ildən bir, yeddi ildən bir prezident seçək, nə bilim, vitse-prezident qoyulmasına münasibət bildirək... Bəs bizim ümumxalq referendumunda səs verib bu maddələri dəyişdirməyimiz hakimiyyətin nəyinə lazımdır?

Bəziləri hansısa hakimiyyət ötürməsi modellərindən danışır. Anlamıram: əvvəllər guya bunu çətin edirdilər? Ötürmədən saxlasalar nə olacaq? Qanunsuz ötürsələr kim dinəcək?

Elə bil əlimizdə hansısa qədim dildə yazılan dua kitabı var. Hər 6-7 ildən bir onun təsadüfi səhifəsini açıb fala baxırıq. "Bəxtimizə hansı maddə çıxdı?"

Bir versiya var ki, bunu xarici imic üçün edirlər, guya bizdə hər şey qanunlara uyğun dəyişilir. Daha doğrusu, dəyişilmir. "Qanun tələb edir, dəyişmirik, neynəyək, qanunsuz hərəkət edə bilmərik ki"? Qanunun aliliyi-zad... Ancaq bu da inandırıcı gəlmir, çünki son illərdə dünya siyasəti elə deqradasiyaya uğrayıb ki, bizim "uçaskovı" Məmmədalı dayı arzu eləsə Avropa Şurası Parlament Assambleyasının vitse-prezidenti seçilər.

Orda bəzi maddələr mülkiyyəti vətəndaşın əlindən tutub almağa icazə verəcək. Gələcəkdə neft pulu olmayacaq, kiminsə evini kompensasiyasız sökmək üçün əsas yaradırlar. Ancaq bunu indi də edirdilər!

Yaxud təzə qanunda deputatxananı kefi istəyəndə buraxmaq haqqı prezidentə verilir. Bir növ, özün düzəltdiyin evciyi istədiyin vaxt dağıda bilərsən. Pul azalanda hətta Zahid Oruc adamın üzünə qayıdır - görmüşük bunların hamısını. Ancaq kim deyir təzə qurulan oyuncaq evcik pulsuz yaşamağa dözüm göstərəcək? Qarantiya yoxdur. O zaman hər ay deputatxana yığmayacaqsan ki?

Yeri gəlmişkən, dünən AXCP və Müsavatın rəhbərləri xalqı bu konstitusiya dəyişikliyinə etiraza qalxmağa çağırıb. Ancaq bunu kim eşidəcək? "Məhsul" stadionuna nə qədər adam gələcək? Yenə "səndə beş adam az idi, mənimkilər daha çox qışqırdı" söhbətləri ilə ömrümüzü çürüdəcəklər. O məşhur anekdotda deyilən kimi, hər şey dünənki kimi olacaq.

Bəs bizim bu labirintdən çıxış yolumuz yoxdurmu? Var, əlbəttə. İstənilən dolanbacın çıxışı var. Sadəcə, çıxmaq arzusu ürəkdən olmalıdır. Labirintdən fərqli olmalısan. Ta onun bir divarına gərək çevrilməyəsən. Mücərrəd olmayasan. Aydın dildə, xalqın anladığı kimi danışmalısan, xalq kimi yaşamalısan, onun dərdini-sərini bilməlisən. Elə xalq özü də nə istədiyini bilməlidir. Nə istədiyini bilməyənlərə kömək etmək çox çətindir. Kimsə çalaya düşəndə ordan çıxış planı hazırlayır. Ya da çalanın dibində uzanıb öləcəyini gözləyir. Bizdə isə çalaya düşənlər nə çıxmaq istəyir, nə batmaq. Tıq-tıq xanımın nağılı bu mənada bizim mənəvi konstitusiyamız kimi bir şeydir: "-Əlini mənə bəstərəcik, -Yox, yox, mən səndən küstərəcik".

Qaldı iqtidarın nə etmək istədiyi sualına... Biz onu anlamırıq - onun gücü elə budur. Biz bilsək onlar nə istəyirlər, işimiz asan olardı. O biri dünya kimidir. Hələ heç kim salamat qayıtmayıb.

# Azərbaycan ətrafında üç ölkədə gərginlik

## Elxan Mehdiyev: "Hadisələr Azərbaycana zərbə vura bilər"

**Son günlərdə Azərbaycanla qonşu olan dövlətlər daxilində gərginlik getdikcə artmaqdadır. Türkiyədə baş verən 15 iyul qiyamı, ardınca Ermənistanda hərbiçilərin üsyanı və son olaraq da Qazaxıstanın mərkəzindəki polis idarələrinə edilən silahlı hücumlar və bir neçə polis əməkdaşının öldürülməsi dediklərimizə əyani sübutdur.**

Baş verən hadisələrin ölkəmizə təsir edəcəyi ilə bağlı ekspertlər həyəcanlı proqnozlar verirlər. Heç şübhəsiz ki, hər bir ölkədə yaşanan bu tipli hadisələr qonşu dövlətlərə də sıçrayır. Bu baxımdan Azərbaycan hökumətinin önləyici tədbirlər almasının vacibliyini deyənlərin sayı durmadan artır.

**Sabiq MTN-çi Arzu Nağıyev** qonşu ölkələrdə baş verənlərin səbəb və məqsəddən doğduğunu düşünür: "Ermənistan, Qazaxıstan və Türkiyədə gedən proseslərin səbəbləri müxtəlifdir. Təbii ki, heç bir dövlət belə məsələlərdən sığortalanmayıb. Hər bir baş tutan dövlət çevrilişi inqilab deməkdir, hər bir baş tutmayan inqilab dövlət çevrilişi deməkdir. Dünyada belə prinsip var. Qazaxıstanda son ayda belə hadisələr bir neçə dəfə baş verib. Qazaxıstanda baş verənləri radikal islam qrupları ilə, Türkiyədəkini dövlət çevrilişi, Ermənistandakını isə konstitusion hüquqlardan düzgün istifadə etməməklə əlaqələndirdilər. Qərbyönlü siyasətçilər artıq meydana çıxmağa başlayıblar. Hər üç ölkədə baş verən hadisələrin birbaşa olmasa da, dolayısı ilə Azərbaycana təsiri var. Əgər Ermənistanda dövlət çevrilişi baş versə, təsəvvür edin ki, Dağlıq Qarabağ münaqişəsinin həllinə yenidən baxılmalıdır. Qazaxıstan da bizə yaxın ölkədir. Ümumiyyətlə, Orta Asiya regionunda baş verən hər bir hadisə birbaşa Rusiyaya təsir edir, Rusiyanın təsiri isə regiona və o cümlədən Cənubi Qafqaza təsir edir, Türkiyə də həmçinin. İqtisadi layihələr baxımından orada baş verənlərin bizə təsiri qaçılmazdır. Nəzərə də almaq lazımdır ki, qardaş ölkə bizim ən yaxın strateji müttəfiqimizdir. Amma baş verənlərin ölkəmizə sıçraması mümkün deyil. Çünki hansısa bir hadisə yetişməlidir ki, sonda baş versin. Bu gün Azərbaycanda hərbi və digər çevrilişlərə cəhdlər qeyri-mümkündür".



**Politoloq Elxan Mehdiyev bildirdi ki, Ermənistanda baş verənlər bizim üçün sevindiricidir və bu proseslərin davamlı olmasını Azərbaycanda hər kəs istəyir:** "Ermənistanda baş verənlər Azərbaycanın maraqlarına tam uyğundur. Qazaxıstana gəlincə, bu dövlət bizimlə qardaş ölkədir. Bu dövlətin prezidenti bizi bütün forumlarda dəstəkləyir. Orada baş verənlərin, hakimiyyəti zorla dəyişmə cəhdlərinin tam əleyhinəyəm. Bu baxımdan, Azərbaycan Nursultan Nazarbayev hökumətini tam dəstəkləməlidir. Türkiyədə baş verənlər təkcə bölgəyə deyil, beynəlxalq təhlükəsizliyə zərbə vuran hadisədir. Daxildə yaşananlar Türkiyənin zəifləməsinə və beynəlxalq aləmdə nüfuzdan düşməsinə doğru gedən hadisələrdir. Bütün bunlar Azərbaycanın maraqlarına uyğun deyil. Erməni işğalı, eləcə də Amerika və digər Avropa dövlətləri, o cümlədən NATO ilə münasibətlər baxımından Türkiyədə cərəyan edən hadisələr Azərbaycana zərbə vura bilər".

❑ **Cavanşir ABBASLI**

# Nazarbayevə sələfi təhlükəsi

## Qazaxıstanda iki ayda ikinci terroru törədən oxşar gizli güclər

**Qazaxıstanda yenidən vəziyyət gərginləşib. Belə ki, iyulun 18-də ölkənin kommersiya paytaxtı olan Almatıda naməlum silahlı şəxslər bir neçə polis işçisini qətlə yetirib. Qazaxıstan Milli Təhlükəsizlik Nazirliyinin məlumatına görə, naməlum şəxslər Almatıda rayon daxili işlər şöbəsinin və MTN Departamentinin binalarına hücum edib. Nəticədə polis əməkdaşları öldürülüb. Qazaxıstan prezidenti NursultanNazarbayev Almatıda baş verən atışmanı terror aktı adlandırıb.**



Hücum edənlərin qeyri-ənənəvi dini cərəyanın nümayəndələri olması güman edilir. Onu da qeyd edək ki, Almatı Qırğızıstanla sərhədə yaxındır və ölkənin ən böyük şəhəridir. Ekspertlər hesab edirlər ki, Qazaxıstanda Qırğızıstan və Özbəkistandan fərqli olaraq dini aktivlik aşağıdır. Bu baxımdan, Almatıda belə bir hadisənin baş verməsi Qazaxıstana xəbərdarlıq kimi xarakterizə olunur. Hesab olunur ki, bu hadisədə də Rusiyanın müəyyən qədər rolu var. Buna səbəb isə Qazaxıstanın Çinlə yaxınlaşması və rusların bunu istəməməsidir.

**Mövzu ilə bağlı "Yeni Müsavat"a politoloq Mübariz Əhmədoğlu bildirib ki, əsas məsələ sələfilərlə bağlıdır:**

"Bu, "yatmış ocaqlar" məsələsidir. Hesab edirəm ki, hazırda Rusiya MDB məkanında hər hansı bir xaosla bağlı yaranmış vəziyyətdən dəhşətli dərəcədə qorxur. Rusiya hesab edir ki, əgər bu gün Qazaxıstan, Ermənistan, yaxud da Türkiyədə hansısa hadisə baş verirsə, bu, Rusiyanın da ərazisinə keçə bilər. Bu baxımdan, düşünürəm ki, Rusiyanın bu məsələdə rolu yoxdur. Əgər Qazaxıstanda baş verən son hadisələri təhlil ediriksə, burada mütləq "yatmış ocaqlar" məsələsinə diqqət eməliyik. Bu gün orada sələfi məsələsinə diqqət yönəltmək lazımdır. Qazaxıstanda dini ənənə olmayıb. Burada hazırda yeni formalaşan dini ənənədən söhbət gedir. Sələfilər isə yeni formalaşan dini ənənədə xüsusi yer tutur".

**Politoloq bildirib ki, Qazaxıstan Mərkəzi Asiyanın aparıcı lider ölkəsi olduğu üçün ona təsir etmək istəyənlər çoxdur:**

"Qazaxıstan Mərkəzi Asiyada önəmli ölkədir. Bunu sələfilər də, Amerika, Rusiya və Çin də çox gözəl bilir. Başa düşürlər ki, kim Qazaxıstandakı vəziyyətə sahib olarsa, o, bütün Mərkəzi Asiyadakı duruma nəzarət edəcək. Bu baxımdan, sadaladığım ölkələr və güclər Qazaxıstandakı vəziyyəti ələ almaq istəyirlər".

Bir məqamı da qeyd edək ki, ötən ay Qazaxıstanın Aktobe şəhərində də terror hadisəsi törədilmişdi və orada da bunu edənlərin, dindarlar olduqları bildirilirdi. Lakin həmin zaman əksər ekspertlər Qazaxıstanda dindarların az olduğunu əsaslandıraraq bildirdilər ki, bu qarışıqlığı yaradan əsas qüvvə Rusiyadır.

**Onu da qeyd edək ki, Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Qazaxıstan, Ermənistan və Türkiyədə baş verənlərə münasibət bildirib. O söyləyib ki, Türkiyədə, Ermənistanda və Qazaxıstanda baş verən hadisələrə eyni gözlə baxmaq olmaz:** "Bu hadisələri konkret hal kimi təhlil etmək lazımdır. Bir halda söhbət çoxsaylı insan tələfatı ilə nəticələnən dövlət çevrilişinə cəhddən gedirsə, digər hallarda müxtəlif kriminal təzahürlər önə çıxır".

**Mətbuat katibinin sözlərinə görə, Rusiya sərhədlərinin təhlükəsizliyi müvafiq qaydada təmin olunur, vəziyyət yaxından izlənilir.** "Əlbəttə, sərhədlərimizdə belə turbulentliyin yaranması narahatlıq doğurur. Şübhəsiz, bu, vəziyyəti diqqətlə izləməyi, onu təhlil etməyi tələb edir. Qəbul edilən məlumata əsasən, lazımi tədbirlər görülür", - deyə Rusiya prezidentinin mətbuat katibi vurğulayıb.

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 156 (6477) 20 iyul 2016

**"Türkiyə və Ərdoğan rejimi fenomenini nə ABŞ, nə də Rusiya başa düşür". Musavat.com-un məlumatına görə, bu fikri Rusiya İslam Komitəsinin sədri, Azərbaycan əsilli tanınmış siyasi analitik Heydər Camal "Novosti-Azerbaydjan" portalına müsahibəsində Türkiyədəki son hərbi çevriliş cəhdini şərh edərkən deyib. Mövzunun aktuallığını nəzərə alıb müsahibənin tərcümə variantını qısa ixtisarla təqdim edirik.**

# "ABŞ bu hadisələrdə pərdəarxası qızışdırıcı rolunda idi" - Heydər Camal

## "15 iyulda Türkiyə xalqı qiyamçıların vəd elədiyi sekulyar liberalizm, eynicinsli nikahlar və başqa Avropa "sevincləri" yolunu rədd elədi, İslam yolunu seçdi"



## Azərbaycan əsilli rusiyalı siyasi analitikdən Qarabağda müharibə xəbərdarlığı: "Türkiyənin vəziyyətdən istifadə edən Ermənistan təxribatlara əl ata bilər"

***- Türkiyədəki qiyamı necə qiymətləndirirsiniz, demək olarmı ki, bu, ABŞ-ın əl işidir?***

- Türkiyədəki çevriliş cəhdinin mahiyyəti ondan ibarətdir ki, məhz onun sayəsində Türkiyə dövlətinin qeyri-dostları tərəfindən nə Türkiyə dövlətinin, nə də Ərdoğan rejimi və onun partiyasının bir fenomen olaraq başa düşülmədiyini qəti olaraq üzə çıxarıb. Aydındır ki, ABŞ, - sabiq MKİ direktorunun bu yaxınlarda etiraf elədiyi kimi, - Yaxın Şərqdən, müvafiq surətdə də Türkiyədən heç nə baş açmır. Amerikalılar, ümumiyyətlə, öz konkret ştatlarının xaricində heç nədən yaxşı baş açmırlar.

Ən qəribəsi isə odur ki, Türkiyəni 500 illik qarşıdurmaya, 15-ə yaxın rus-türk müharibəsinə və çoxsaylı humanitar, kommersiya kontaktlarına rəğmən, Rusiyada da anlamır və ya anlamaq istəmirlər. Rusiyada dövrümüzün siyasi ekspertləri arasında belə təsəvvür dominantlıq edir ki, guya Türkiyə ABŞ-a satqın komprador bürokratiyanın idarə etdiyi satellit dövlətdir, guya Türkiyə Qərb qarşısında diz üstə çöküb, guya Türkiyə toplumu ukraynalılar kimi Avropa Birliyinə can atır və s. Praktik olaraq Rusiyanın bütün siyasi sinfini əhatə edən bu kimi sayıqlamalar özü haqda yüksək fikirdən və cahillikdın qaynaqlanır.

Həqiqətən, hərçənd Türkiyə NATO-ya daxildir, o, yegane ölkədir ki, 2-ci Dünya müharibəsində kontinental Avropanın digər bütün dövlətlərindən fərqli olaraq müttəfiqlərə uduzmayıb, məğlubiyyət və suverenliyin itirilməsini dadmayıb. Bunu da xatırlatmaq yersiz olmaz ki, SSRİ məhz belə bir məğlubiyyətə uğrayıb - düzdür, bu "soyuq müharibə" nəticəsində baş verib, ancaq onun nəticələri "isti müharibə"nin nəticələrindən daha ağır olub.

Daha qəribəsi isə qiyamçılar və qiyamın təşkilatçılarının da Türkiyəni başa düşməməsidir. Onlar açıq-aşkar ümid edirdilər ki, bununla bütün Kiçik Asiyaya yayılacaq qığılcım rolu oynaya biləcəklər. Lakin ordu və xalq ölkənin de-islamlaşdırmaq vədi verən qiyamçılara qoşulmadı, qəti şəkildə onların yolunu kəsdi. Başqa sözlə, Türkiyə xalqı islam yolu seçdi - hansı yolla ki, AKP hərəkət edir və qiyamçıların öz ölkəsinə vəd elədiyi sekulyar liberalizmi, eynicinsli nikahları və başqa Avropa "sevincləri"ni rədd edir.

Vaşinqtonun bu avantüradakı roluna gəlincə, həmişə olduğu kimi, Amerika bu dəfə də o başqalarını icraçı olmağa vadar edən pərdəarxası qızışdırıcı qismində idi. Üstəlik də elə bir zamanda ki, müasir Türkiyə dövlətinin qeyri-dostları onun sərhədlərinin perimetri boyu yerləşib. Dost ölkələrə gəlincə isə Azərbaycana xüsusən də Ərdoğanla dostluq hava kimi lazımdır, ən azı o səbəbə ki, Azərbaycan da islamofob və antitürk subyektlərlə qarşıdurmadadır.

***- Ərdoğan qalib gəldi. Bundan sonra regional siyasətdə nə gözlənilir?***

- Ərdoğan baş verənlərə görə günahkarın konkret olaraq okeanın o tayında olmasını göstərməyi zəruri bildi - hərçənd, bu işə əli bulaşan instansiyalar əslində daha yaxındır. Ancaq Türkiyə prezidentinin siyasi və diplomatik seçimi belədir. Bu, o deməkdir ki, Ankara Yaxın Şərqdə Amerika mövcudluğunu azaltmaq yönündə çalışacaq. Proses artıq başlayıb: amerikalıların istifadə elədiyi İncirlik hərbi bazasının fəaliyyəti məhdudlaşdırılıb. Bununla belə, bütün cəbhələrdə hücum mümkün olmadığı üçün Ərdoğan əlindəki informasiyalara rəğmən, qonşularla tərəfdaşlıq əlaqələrində olduğunu nümayiş etdirməli olacaq.

***- Bir sıra Türkiyə KİV-i bildirib ki, Rusiya təyyarəsini məhz qiyamçı hərbçilər vurublar. Bu hadisələrdən sonra Moskva- Ankara münasibətləri daha da yaxınlaşa bilərmi?***

- Bu qəbildən xəbərləri boş hay-küy kimi rədd eləmək lazımdır. Yada salaq ki, insidentdən dərhal sonra ovaxtkı baş nazir Əhməd Davudoğlu sərhədi pozan "Su 24" təyyarəsinin vurulmasına göstərişi şəxsən özü verdiyini bildirmişdi. İndi ki, heç kim Davudoğlunu ittiham eləmir ki, o gülənçidir. Görünür, belə mənasız şeyləri yazan KİV-lər düşünür ki, auditoriyanın yaddaşı zəifdir.

***- Sizcə, Türkiyədəki son olaylar Azərbaycana və Qarabağ nizamlanmasına necə təsir edəcək?***

- Təəssüflər olsun ki, qiyamın günahkarı qismində ABŞ müəyyən edildiyindən, Ərdoğanın Rusiya, müvafiq olaraq da erməni istiqamətində əl-qolu bağlanmış olacaq. Bu üzdən də yaxın zamanlarda Türkiyə Bakıya sonuncunun vərdiş elədiyi ənənəvi dəstəyi tam verə bilməyəcək. Əlbəttə ki, Türkiyə heç vaxt öz müttəfiqini atmayacaq, hərgah, Azərbaycanın blogger ictimaiyyətinin bir qisminin şərhləri yəqin ki, qardaş ölkənin hisslərinə toxunub. Amma burada başqa bir təhlükə var: məsələ ondadır ki, Ankaranın şimal istiqamətində əl-qolunun bağlı, Azərbaycanın isə nisbi tənhalığına əmin olan Ermənistan təxribatlarına əl ata bilər. Azərbaycan xalqı, onun silahlı qüvvələri buna hazır olmalıdır.

❑ **Siyasət şöbəsi**

# "Narıncı inqilablar" və "ərəb baharı"na 15 oktyabr nöqtəsi

## İnqilablar nəticəsində dövlət çevrilişi baş verən ölkələrin bəzilərinin hökumətləri də qanuni idisə, niyə dünya gücləri devirimləri dəstəkləyirdi?

**Türkiyədə yaşanan 15 iyul qiyamında haqlı olaraq dünyanın əksər ölkələrinin demokratik yolla formalaşmış AKP iqtidarına dəstək verməleri bir çox məsələləri gündəmə gətirib, bəzi suallara yol açıb. Belə ki, 2005-ci ildən başlayaraq, "narıncı inqilablar" adı altında bir sıra ölkələrdə baş verən inqilablar, eləcə də 2011-ci ildə "Ərəb baharı" adlanan proseslər başlandığı zaman əksər dünya dövlətləri və müxalifətlər üsyançıların tərəfində oldular.**




O müxalifətçilərə dəstək verildi ki, dövlət çevrilişi həyata keçirilən dövlətlərin bəzilərinin hökumətləri demokratik yolla formalaşmışdı. Azərbaycanın demokratik düşərgəsi dövlət çevrilişlərində həmin ölkələrin xalqını dəstəklədi. 15 oktyabrda isə dünya Türkiyənin seçilmiş hökumətinin yanında oldu. Bu, o deməkdirmi ki, daha bu cür devrimlər dövrü bitdi?

**Politoloq Natiq Miri hansı ölkənin olmasından asılı olmayaraq, qanuni hakimiyyətləri zorla devirməyin qanuna zidd olduğunu bildirdi:** "Avtoritar ölkələrdə və beynəlxalq hüquqda bunlar birmənalı qəbul edilmir. Misirdə baş verən son qiyama dünya susqunla yanaşdı. Çünki bunun konkret səbəbləri var idi. O hakimiyyət xalq tərəfindən seçilmişdi. Onların yürütdüyü siyasət dünya güclərinin, o cümlədən, Amerikanın Yaxın Şərq siyasətində zidd idi. İsrailin təhlükəsizliyini təmin etmək üçün ərəb dünyasının ən böyük dövləti Misirlə münasibətlər çox vacibdir. Amma Mursinin dövründə Misirin İsrailə münasibəti mənfi istiqamətə dəyişmişdi. Bunu da ABŞ və İsrail Yaxın Şərqdə balansın pozulması kimi qiymətləndirirdilər. Onların dəstəyi ilə hakimiyyət devrildi və beynəlxalq güclər bunu sükutla qarşıladılar. Türkiyədə baş verən proseslər də Misirdə baş verənlərin təkrarı idi. Sadəcə, bu dəfə Misirdən fərqli olaraq, xalq öz hakimiyyətini dəstəklədi. Hərbi gücün zorla hakimiyyəti devirmək cəhdinin qarşısı alındı. Amma Misirdə bir barbarlıq baş verdi. Xalqın seçdiyi Mursi hakimiyyəti devrildi. Heç bir qanuna sığmayan ölüm hökmünə həmin siyasətçiləri qərq etdilər. Misirdən fərqli olaraq, AKP hakimiyyəti başqa siyasət yürütməlidir. Çünki xalq dövlət çevrilişinin qarşısını qanları ilə aldılar. AKP hakimiyyəti bundan doğru istifadə etməlidir. Əks halda, toplumda ciddi parçalanmalar baş verə bilər. Barış mühitinin yaradılmasına böyük ehtiyac var. Türkiyə baş verən hadisədən güclənərək şəkildə çıxmalıdır".

**N.Miri dünya və Azərbaycan müxalifətinin Misir və digər ölkələrdə baş verən dövlət çevrilişlərində qiyamçıların tərəfində olmalarını sərt şəkildə qınadı:** "Demokratiya adına mübarizə aparan bütün siyasi güclər üçün bu, böyük biabırçılıq və qeyri-ciddilik idi. Çünki Mursi xalq tərəfindən seçilmiş bir hakimiyyət idi. Amma burada onu devirənlərin dəstəklənməsinə heç bir ad vermək mümkün deyil. Əgər Azərbaycan müxalifəti bu gün ölkədə hakimiyyətin zorla devrilməsinin əleyhinədirsə, o zaman nəyə görə Misirdə qanuni hökumətin devrilməsinə susdular? Ən azından növbəti seçkiyə qədər Azərbaycan müxalifəti Mursi hakimiyyətini dəstəkləməli idi. Çünki hazırkı müxalifət 1993-cü ilin iyununa qədər legitim hakimiyyət idi. Həmin dövrdə iqtidar zor gücünə devrildi. Bu gün Mursi hakimiyyətinin devrilməsinə göz yuman müxalifət, demək, zorla iqtidarlarının devrilməsinə haqq qazandırırlar. Belə səhvlərə yol vermək olmaz. Sənin xoşuna gəlməyə bilər, amma demokratik hakimiyyət istənilən halda dəstəklənməlidir".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 156 (6477) 20 iyul 2016

# AXC hökumətinin mühüm fiqurundan şok açıqlamalar

## Elçibəy də Ərdoğan kimi xalqı meydana çağırsaydı...



**Türkiyədə 15 iyul qiyamı Azərbaycanda və dünyada ən müxtəlif aspektlərdən müzakirə olunur. Azərbaycanda həmçinin bu olayla 1993-cü ilin iyun hadisələri arasında paralellər də aparılır.**

Belə iddialar hər zaman səslənib ki, 1993-cü ilin 4 iyun qiyamı o zamankı AXC hakimiyyətinin qətiyyətsizliyi ucbatından Surət Hüseynovun Gəncədən başlatdığı qiyam Bakıda qələbə ilə başa çatmışdı. Türkiyədəki 15 iyul və dünyada bu tipli hərbi çevriliş cəhdlərində isə həmin ölkələrin rəhbərləri ilk olaraq, xalqın gücünə arxalanıblar və xalqı meydanlara çağırmaqla qiyamı yatırıblar. Necə ki, 15 iyulda Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan belə etdi. Eyni zamanda 1994-cü ilin oktyabrı və 1995-ci ilin martında da belə hadisələr ölkəmizdə yaşanıb və o zaman Azərbaycan prezidenti olan Heydər Əliyev xalqı meydanlara çağıraraq, siyasi hakimiyyət üçün yaranan təhlükənin qarşısını almışdı. Bütün bunların fonunda 1992-93-cü illərdə Azərbaycanda hakimiyyətdə olan Əbülfəz Elçibəy hökumətinin 4 iyun qiyamında bu şansdan istifadə etməməsi daim suallar doğurur. İndinin özündə də Türkiyədəki qiyamın ardından ölkəmizdə ən çox müzakirə olunan məsələ budur.

**Elçibəy hökumətində milli təhlükəsizlik nazirinin müavini işləmiş, Azad Demokratlar Partiyasının sədri AXC Sülhəddin Əkbər hakimiyyətin bu tarixi fürsətdən nə üçün yararlanmamasına bu cür aydınlıq gətirdi:** "Türkiyədəki hadisə çox ibrətamizdir. Türk xalqı keyfiyyətcə yeni bir mərhələyə qalxdığını bütün dünyaya göstərdi. Xalq demokratiyanın gücünə inandı və ona sahibləndi. Türkiyə artıq inkişafda olan demokratiyanın başlanğıcındadır. İstər xarici, istərsə də daxili güclərdən heç kəs xalqın iradəsi ilə formalaşmış hakimiyyəti devirməyə cəhd etməyəcək. Əks halda, qarşısında xalqı görəcək. Azərbaycan hakimiyyəti bundan ciddi nəticə çıxarmalıdır. İlk növbədə, iqtidar illərdir dediyim "beşinci kolon"u zərərsizləşdirməlidir. Bunu etməyəcəyi halda günün birində bu qüvvələr baş qaldıracaq və hakimiyyət, xalq, dövlət üçün təhlükəli vəziyyət yaranacaq. Elçibəyin bu şansdan istifadə etməməsi ilə bağlı bir söz deyə bilmərəm. Çünki həmin dövrdə siyasi hakimiyyətdə olmamışam və siyasi qərarların qəbulunda iştirak etməmişəm. Hansı müzakirələrin olduğu barədə məlumatım yoxdur. Amma xalq, müxalifət və media üçün bir mesajdır ki, öz qanuni hakimiyyətini qoruya bilmədiklərinə görə 23 ildir bu qiyamın acı meyvələrini yeməklə məşğuldurlar. Əgər zamanında xalq ayağa qalxıb hakimiyyətinə sahib çıxsaydı, belə vəziyyət yaranmazdı. 1993-cü ildə də çox təəssüf ki, eyni səhvlər edildi. Həmin dövrdə zamanında "beşinci kolon" barədə Elçibəy hökuməti əvvəlcədən xəbərdar edilmişdi. Təəssüflər olsun ki, siyasi rəhbərlik zamanında tədbirlər görmədi və nəticədə özünün devrilməsi ilə nəticələndi. Buradan iki nəticə çıxır. Birincisi, hakimiyyət gözlənilən təhlükəni təmizləməlidir, əks halda "beşinci kolon"un hədəfi olacaqdır. İkincisi, zamanında bu tədbirlər görülməsə, 4 iyun qiyamında olduğu kimi, gec olacaq. Nəzərə alaq ki, zamanında xalqımız və müxalifət səhvlər etməsəydi, bu gün tamam başqa Azərbaycana şahidlik edəcəkdik. 23 ilimiz də hədər getməzdi".

**Sabiq MTN-çi zamanında hərbi qiyam barədə Elçibəy hökumətinə xəbər verdiyini bildirdi:** "Həmin dövrdə hakimiyyətə gələr-gəlməz hökumət daxilində "beşinci kolon"un olması, rəhbərlikdə vəzifə tutmuş yüksək rütbəli şəxslər barədə siyasi hakimiyyətə öz vəzifəm gərəyində müraciət etmişəm. Hətta aylarla tədbirlər görülməsi barədə xəbərdarlıqlar etmişəm. Çox təəssüf ki, siyasi qərarlar verilmədi, həmin şəxslər rəhbərlikdə vəzifələr tutmaqda davam etdilər. Sonucda da qiyamda iştirak etdilər. Nəzərə almaq lazımdır ki, belə situasiyalar yarananda demokratik yolla hakimiyyətə gələnlər xalqa müraciət edirlər. Çünki demokratik hakimiyyətin əsas dayağı xalqdır. Xalqın meydanlara çıxdığı, öz hakimiyyətinə sahib durduğu vaxtda təhlükələrin qarşısı alınır. Bunu Türkiyədə gördük. Hətta qiyam tərəfi belə tərəddüd edir. Türkiyədə hamımız xalqın tankları, zirehli texnikaları necə tərk-silah etdiyinin şahidi olduq. Əsgərin öz xalqına atəş açması asan məsələ deyil. Dərin psixoloji tərəfləri var. Bu baxımdan, xalqın gücündən belə hallarda istifadə olunur".

**Partiya sədri 1993-cü ildəki Azərbaycan müxalifətinin fəaliyyətinin Türkiyədəki son qiyamda müxalifətin fəaliyyəti ilə müqayisə edilməsinin vacibliyini vurğuladı:** "15 iyul qiyamında müxalifət hakimiyyətin yanında oldu. Bunun da nəticəsini gördük. Halbuki 4 iyun qiyamında bunun əksi idi. Azərbaycan müxalifəti hərbi qiyamçılarla birləşmişdi. O zaman müxalif media hərbi qiyamı böyük sevinclə qarşılayırdı. Xalqımızın bir hissəsinin qiyamı dəstəkləməsinin, əksəriyyətinin isə susqun qalmasının böyük təsiri oldu. Edilən bu səhvlərin bu gün nəticələrini yaşayırıq. Bunu hər kəs anlamalıdır ki, hərbi qiyam qalib gəlirsə, bu, bütün millətə və dövlətə ziyandır. Heç kəs bundan sevinməməlidir. İstəyirəm ki, xalqımız qardaş ölkədə son baş verən hadisələrdən ciddi ibarət dərsi çıxarsın. Önümüzdə də ölkəmizi çətin sınaqlar gözləyir. Heç olmasa bu dəfə səhvlərə yol verilməsin".

❑ **Cavanşir ABBASLI**

# Türkiyədə qiyam baş tutsaydı, Qarabağın taleyi necə olacaqdı?

**15 iyulda Türkiyədə hərbi çevrilişə cəhd hadisəsi Azərbaycan ictimaiyyətində də təlaşla izlənildi. Nəticələr bu gün də müzakirə olunmaqdadır.**

Hadisə ilə bağlı ilk gündən müxtəlif fikirlər səsləndi. Sosial şəbəkələrdə sadə vətəndaşlar, ictimai şəxslər bu olaya biganə qalmadılar. Kimisi "məhmətcik" deyərək xalq tərəfindən döyülən əsgərlərin tərəfindən çıxış etdi, kimisi isə Ərdoğan hökumətinə qarşı qiyam edənləri qınadı. Nəticə etibar ilə hər kəs qardaş Türkiyənin inkişafı və uğurlu gələcəyinin tərəfində olduğunu bildirdi.

Mövzu ilə bağlı Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseynin yanaşması da xeyli müzakirəyə, dəstəyə və tənqidə səbəb oldu. Belə ki, Pənah Hüseyn "Yeni Müsavat"a göndərdiyi məqaləsində bildirib: "Hesab edirəm ki, Allah göstərməsin, Türkiyə qayb etsəydi, ondan az olmayaraq Azərbaycan, Qarabağ davamız qayb edəcəkdi. Odur ki, 15- 16 iyul hadisələrində müqavimət qurbanları yalnız Türkiyə uğrunda deyil, bütün türk və müsəlman dünyası, Azərbaycan üçün şəhid oldular".



**Akif Nağı:** "Orada kimlərin hakimiyyətə gəlməsi və hansı kursu götürəcəkləri məlum deyildi"



**Fəzail Ağamalı:** "Azərbaycan bu cür qiyamçılar, zorakı üsullarla hakimiyyətə gələn qrupla əməkdaşlıq etməyi bir dövlət kimi özünə rəva bilməzdi"

"Yeni Müsavat"a danışan ekspert Mehman Əliyev isə bildirib ki, kimin qələbə qazanmasından asılı olmayaraq böyük dövlətlər Türkiyə rəsmiləri ni eşidəcəklər.

**Mövzu ilə bağlı "Yeni Müsavat"a deputat Fəzail Ağamalı da danışıb. O bildirib ki, Türkiyədə qiyamçılar qələbə qazansaydı, Azərbaycan və Türkiyə münasibətlərində çox ciddi problemlər meydana gələ bilərdi:** "Çünki Azərbaycan bu cür qiyamçılar, zorakı üsullarla hakimiyyətə gələn qrupla əməkdaşlıq etməyi bir dövlət kimi özünə rəva bilməzdi. Bu cür qüvvələrlə əməkdaşlıq normal qəbul olunmur. Şükürlər olsun ki, orada hərbi çevriliş baş tutmadı. Türkiyənin konstitusiya quruluşuna, demokratik yolla seçilən indiki hakimiyyətinə qarşı qaldırılan qiyamın xalq, iqtidar tərəfindən qarşısı alındı. Onlar ciddi zərbə aldılar. Bununla bərabər, hesab edirəm ki, qiyamla bağlı Türkiyədə çox ciddi problemlər yarandı. Hər zaman hörmətə layiq olan silahlı qüvvələrə ciddi zərbələr vurulmuş oldu. Digər tərəfdən, məncə, bu, uzun müddət ölkənin siyasi, iqtisadi həyatına mənfi təsirini göstərəcək. Bu cür Türkiyə dövlətçiliyə ağır zərər vurmaq niyyətində olan qiyamın nəticələrinin aradan qaldırılması üçün müəyyən zaman lazım gələcək".

**Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı da məsələ ilə bağlı fikrini bildirib. A. Nağı qəzetimizə açıqlamasında söyləyib ki, Türkiyə artıq Qarabağ məsələsində radikal addım atmalıdır:** "Təbii ki, çevriliş Türkiyə üçün arzuolunan məsələ deyildi. Orada kimlərin hakimiyyətə gəlməsi və hansı kursu götürəcəkləri məlum deyildi. Ona görə də hakimiyyətə gələnlərin Qarabağ məsələsinə münasibətləri barəsində fikir səsləndirmək doğru olmaz. Hesab edirəm ki, Türkiyənin indiki kursu, Azərbaycanın Qarabağla bağlı maraqlarına cavab verir. Bu kursun dəyişilməsi də arzuedilən deyildi. Bütün hallarda çevrilişin özü xoşagələn hal deyildi və Qarabağ münaqişəsi üçün də yaxşı bir hal vəd etmirdi. Hesab edirəm ki, Türkiyə bundan sonrakı siyasətində hadisələrdən nəticə çıxararaq addım atmalıdır. O cümlədən xüsusilə də Qarabağ məsələsində Türkiyə daha kəskin və radikal mövqe sergiləməlidir. "Azərbaycanın, Qarabağın dərdi bizim dərdimizdir" ifadəsi artıq kifayət etmir. Azərbaycan real şəkildə Türkiyə tərəfindən dəstəklənməlidir".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 156 (6477) 20 iyul 2016



# Yeni referendum aktı ictimai müzakirədə

## İqtidar yeni idarəçilik formatının yaradılmasının ölkə üçün uğurlu model olacağını bəyan edir, müxalifət isə əksini düşünür

**Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Referendum Aktı layihəsinin rəy verilməsi üçün Konstitusiya Məhkəməsinə təqdim edilməsi haqqında sərəncam imzalayıb.**

Dəyişikliklərə əsasən dövlət başçısı Milli Məclisi buraxmaq səlahiyyətinə də malik olacaq, prezident seçilməklə bağlı 35, deputat seçilməklə bağlı 25 yaş məhdudiyyəti aradan qaldırılacaq, prezidentlik müddəti 5 ildən 7 ilə qaldırılacaq, baş nazir postu ləğv ediləcək, əvəzinə birinci vitse-prezident və vitse-prezidentlər təyin olunacaq. Qeyd edək ki, konstitusiyaya dəyişikliklərlə bağlı layihə iqtidar və müxalifət düşərgəsində fərqli qarşılanıb. İqtidaryönlü siyasi xadimlər layihəni Azərbaycanın inkişafı baxımından mühüm islahatlar kimi dəyərləndirsələr də, müxalif düşərgədə bu, prezident hakimiyyətinin möhkəmləndirilməsi və hakimiyyətin bir əldə cəmləşdirilməsi kimi qiymətləndirilib.

**"Yeni Müsavat"a açıqlamasında deputatı Fəzail Ağamalı qeyd edib ki, ölkə prezidentinin konstitusiya ilə bağlı təklif etdiyi dəyişikliklər reallığı ifadə edir və mahiyyət etibarilə Azərbaycanda konstitusiya quruluşunun möhkəmlənməsinə, idarəçilik sisteminin təkmilləşməsinə, ölkəmizdə demokratik cəmiyyətin daha yüksək səviyyədə inkişaf etməsinə xidmət edən təkliflərdir:** "Dünyada gedən siyasi proseslər və bu proseslərdən çıxan konkret nəticələri nəzərə alaraq, Azərbaycanda dövlətçiliyin güclənməsinə, cəmiyyətin və xalqın yüksək inkişafının təmin edilməsinə yönəlmiş təşəbbüsdür. Birincisi, istər parlament seçkiləri ilə bağlı, istər prezident seçkiləri ilə bağlı yaş məhdudiyyətinin götürülməsi demokratik prinsiplərə zidd olan məqamların aradan götürülməsi deməkdir. Artıq 18 yaşından yuxarı istənilən Azərbaycan vətəndaşının parlament üzvü seçilməsi onun hüququdur, lakin onun seçilmək imkanları xalqın səsindən asılıdır. Prezident seçkilərində kiminsə 35 yox, 324 yaşı varsa, lakin istedad sahibidirsə, siyasətdə özünü təsdiq edibsə, onun hüquqlarının məhdudlaşdırılması doğru deyil. Buna görə də onlara şans verilir. Digər tərəfdən, ölkə prezidentinin 7 ildən bir seçilməsi də dünya praktikasında mövcuddur. Bu, tamamilə dünyada, regionda gedən proseslər fonunda son dərəcə düzgün yanaşmadır".

**F.Ağamalı onu da diqqətə çatdırdı ki, vitse-prezidentlər institutunun yaradılması tam yeni bir yanaşmadır:** "Bəzi ölkələrdə yalnız vitse-prezident var. Lakin təklif olunan variantda birinci vitse-prezident və vitse-prezidentlər var. Bu, artıq idarəçiliyin tamamilə yenidən qurulması deməkdir. Bu layihə referendumdan keçəndən sonra biz görəcəyik ki, idarəetmə sistemində hansı islahatlarla müşahidə olunacaq. Mənim fikrimcə, idarəetmə sistemi daha da sadələşdiriləcək, konkretləşdiriləcək, vitse-prezidentlərin idarəçilik sistemində iştirak etməsi bir sıra institutların ləğvinə və ya birləşməsinə gətirib çıxara bilər. Bu halda nazirlər və nazirliklər necə olacaq, bilmirəm. Dünyanın heç bir yerində belə format yoxdur. Lakin bu, dövlətin güclənməsinə, daha yüksək demokratik səviyyəyə qalxmasına, xalqın inkişafına xidmət edəcək".

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov isə aznews.az-a açıqlamasında bildirib ki, bu, Azərbaycanda ciddi islahatların həyata keçiriləcəyinin anonsudur:** "Bu sərəncamda əsas məqsəd vitse-prezidentlik institutunun yaradılmasıdır. O cümlədən də prezident yaşının 35-dən 30-a, millət vəkillərinin isə yaş həddinin 25-dən 18-ə endirilməsi məsələləri önə çəkilib. Bundan başqa, struktur islahatlarının həyata keçirilməsinə başlanılacaq. Hesab edirəm ki, prezident bu islahatlarla bağlı vaxtında addım atdı. Azərbaycanda vitse-prezidentlik institutunun yaradılmasına ehtiyac var. Bu institutların yaradılması daha çox konkret məsələlərlə məşğul olmaq, həm xaricdə, həm daxildə Azərbaycanın maraqlarını müdafiə etmək və s. referendum aktında öz əksini tapacaq. Hesab edirəm ki, bu müsbət addımlardır".

**Ümid Partiyasının sədri İqbal Ağazadə "Yeni Müsavat"a açıqlamasında bildirib ki, təklif olunan dəyişikliklər daha çox hakimiyyətin vahid əldə cəmləşməsinə xidmət edəcək:** "Bu gün dünyada, XXI əsrdə konstitusiya layihələri ictimai nəzarət mexanizminin, bu strukturların bir-biri üzərində nəzarət mexanizminin gücləndirilməsinə yönəlib. Bu təklif olunan layihə isə səlahiyyətlərin paylaşılması yox, daha çox vahid əldə cəmləşməsidir. Bunun səbəbi regionda baş verən hadisələrdir, yoxsa nədir, mən bunu deyə bilmərəm. Ancaq hər halda, əsaslandırma olacaqsa, Konstitusiya Məhkəməsi mövqeyini ifadə edəcəksə, ondan sonra mən də mövqeyimi ifadə edəcəyəm. Lakin indiki gündə təklif edilən bu dəyişikliklərdən heç birini demokratikləşmə, Azərbaycanın gələcəyinə yardım edilməsi, şəffaf, açıq, inkişaf etmiş cəmiyyətə çevrilməsi üçün əsaslı dəyişikliklər hesab etmirəm. Bu, prezidentlik institutunun gücləndirilməsi, baş nazirlik institutunun zəifləməsidir. Deputat və prezident seçkiləri ilə bağlı yaş məhdudiyyətinin aradan qaldırılmasını da onunla əsaslandıracaqlar ki, bu demokratiyanın göstəricisidir, hər kəsə seçib-seçilmək hüququ verilir. Lakin hər bir ölkədə bununla bağlı yaş məhdudiyyəti var. prezident və ya deputat bəlli bir yaşdan sonra olmalıdır. Mən bunu da uğurlu dəyişiklik hesab etmirəm. Bununla bağlı müxalifət partiyaları arasında müzakirələr aparılacaq və ondan sonra mövqeyimizi bildirəcəyik".




**Müsavat Partiyası da referendum layihəsi ilə bağlı bəyanat yayıb. Bəyanatda deyilir ki, son illər Azərbaycan hakimiyyəti tez-tez qanunvericilikdə və Konstitusiyada dəyişikliklər edir. Təəssüf ki, bu dəyişikliklər bir qayda olaraq neqativ dəyişikliklər olmaqla, idarəçiliyin daha da sərtləşməsinə, demokratik cəmiyyət quruculuğuna əngəl yaratmağa xidmət edir:** "İlham Əliyevin Konstitusiya Məhkəməsinə göndərdiyi "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Referendum Aktı layihəsinin məzmunu göstərir ki, hakimiyyət mövcud olan avtoritar rejimi daha da sərtləşdirmək, ölkədə prezident hakimiyyətini mütləqləşdirmək niyyətindədir. Prezidentlik müddətinin 7 ilədək artırılmasını, prezident tərəfindən təyin olunan, Milli Məclisdə təsdiq olunmayan vitse-prezidentlik institutunun yaradılmasını, prezident seçilmək üçün aşağı yaş həddinin aradan qaldırılmasını nəzərdə tutan əlavə və dəyişikliklər layihəsinin irəli sürülməsi ölkədə avtoritar rejimin daha da gücləndirilməsi meyllərindən xəbər verir. Prezidentə növbədənkənar seçkilər təyin etmək səlahiyyətinin verilməsi, parlamentin səlahiyyətlərinin və torpaq üzərində mülkiyyət hüququnun məhdudlaşdırılması və başqa müddəalar da mürtəce xarakter daşıyır. Müsavat Partiyası indiki, demokratik seçki sisteminin mövcud olmadığı şəraitdə bu dəyişiklikləri nəzərdə tutan referendumun keçirilməsinin ölkədə avtoritar cəmiyyətin daha da möhkəmləndirilməsinə xidmət etdiyini, dövlətimizin və xalqımızın mənafelərinə zidd olduğunu əsas götürərək, belə referendumun keçirilməsinə yol verməmək üçün konstitusiya və qanunların imkan verdiyi bütün vasitələrdən istifadə edərək mübarizə aparacağını bəyan edir".

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn də vurğuladı ki, bu layihə demokratik islahatlara gətirib çıxarmayacaq:** "Layihə öyrənilib müzakirə olunub dəyərləndiriləcək və Xalq Partiyasının bu barədə rəsmi bəyanatı olacaq. İlkin olaraq, bildirmək istəyirəm ki, bu dəyişikliklər birmənalı şəkildə demokratiya istiqamətində olan və demokratik islahatlara gətirib çıxaracaq təkliflər deyil. Əksinə, formal məzmunu baxımından bu təkliflərin əksəriyyəti, həm ifadə, həm mülkiyyət, həm də siyasi sahədə antidemokratik rejimin möhkəmləndirilməsinə, hüquq və azadlıqların məhdudlaşdırılmasına yönəldilib. Lakin hazırda Azərbaycanda elə bir siyasi şərtlər mövcuddur ki, hüquq müstəvisində olan hər hansı dəyişikliklərin siyasi proseslərin taleyinə təsirinin həlledici olmadığı qənaətindəyəm. O baxımdan da, şübhəsiz bu dəyişikliklərin mahiyyəti istiqamətində diskussiyalar getməlidir, mövqelər bilinməlidir, dəyişikliklərin siyasi və hüquqi mahiyyəti cəmiyyətə izah olunmalıdır və belə də olacaq, lakin gerçək siyasi proseslərin taleyinə təsir baxımından təklif olunan dəyişikliklərin və referendumun mühüm, həlledici təsiri olmayacağı qənaətindəyəm. Bir məsələni də qeyd edim ki, bu dəyişikliklər hazırkı siyasi hakimiyyətə loyal olan qüvvələrin də gözləntilərini doğrultmadı. Siyasi müxalifətdə olan bir sıra qüvvələrin, beynəlxalq təşkilatların tələb və tövsiyələri parlamentin səlahiyyətlərinin genişləndirilməsi, parlamentə hesabatlı hökumətin formalaşdırılması, ölkədə siyasi idarəçilik üsulunun qarışıq sistemə , prezident-parlament idarəçilik üsuluna keçməsi, icra hakimiyyətinin səlahiyyətlərinin məhdudlaşdırılması, Nazirlər Kabinetinin rolunun yüksəldilməsi, hüquq və azadlıqların konstitusion səviyyədə möhkəmləndirilməsi istiqamətində idi. Lakin təkliflər bunların 180 dərəcə əksinə oldu. Belə görünür ki, məsələlər siyasi - hüquqi müstəvidən daha fərqli sahəyə keçir".

**Referendumun nə zaman keçiriləcəyinə gəlincə, hüquqşünas Müzəffər Baxış bildirdi ki, referendum təyin olunduğu gündən 60 gün müddətinə həyata keçirilir:** "Qanunvericiliyə görə, Konstitusiya Məhkəməsi referendum aktına müsbət rəy verərsə, bundan sonra prezident referendum təyin edəcək. Çünki yalnız prezidentin referendum təyin etmə səlahiyyəti var. Referendum 60 gün müddətinə, yəni iki ay sonra keçiriləcək".

**❑ Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 156 (6477) 20 iyul 2016

**Qardaş Türkiyədə 15 iyulda baş verən hərbi qiyamın acıları unudulmur. Hər keçən gün çevriliş cəhdi ətrafında yeni-yeni iddialar meydana çıxır, həbslər həyata keçirilir. İstintaq materialları təbii şəkildə gizli saxlanılsa da, artıq hadisə ətrafında müxtəlif iddialar səsləndirilir. Sifarişin ABŞ-dan Fətullah Gülən vasitəsilə gəldiyi barədə fikirlər daha çox səslənir.**

# Qiyamdan sonrakı Türkiyə: yeni xəbərlər, həbslər...

## Hərbi çevrilişdə əli ola bilən dövlətlərin adı və hadisənin yeni detalları açıqlanır



Bununla belə, iyulun 18-də qiyam sifarişinin Birləşmiş Ərəb Əmirlikləri və Misir tərəfindən verilməsi haqqında yayılan xəbərlər iddiaların istiqamətini Şərqə tərəf çevirdi. Bu məlumatı Səudiyyə Ərəbistanının təqaüddə olan kəşfiyyatçısı "Breitbart Yerusəlim"ə açıqlamasında deyib.

**Sabiq kəşfiyyatçının sözlərinə görə, ABŞ-da mühacir həyatı yaşayan Fətullah Gülən BƏƏ-yə gizli səfər edib:**

"Türkiyə Fətullah Gülənin ötən həftə çevriliş planını tamamlamaq üçün BƏƏ səfərini və Misirin çevrilişə cəhddə əli olub-olmadığını araşdırır. Əgər Gülən həqiqətən BƏƏ-yə gedibsə, Türkiyə konkret sübutlar əldə edəcək. Ankara Misir prezidenti Əbdülfəttah Sisi və BƏƏ-nin vəliəhd şahzadəsi Məhəmməd Zayedin məsləhətçisi, keçmiş Fələstin rəsmisi Məhəmməd Dahlanın oynadığı rolu da araşdırır".

**İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif də Türkiyədəki hadisələrlə bağlı parlamentin qapalı iclasında şok fikirlər səsləndirib:** "Aralarında Səudiyyə Ərəbistanı və Qətərin də olduğu bəzi dövlətlər Türkiyədə hərbi çevrilişə cəhd baş verərkən narahatlıq keçirmədilər. Bununla bağlı düşünmək lazımdır". **O bildirib ki, məhz bu dövlətlər Türkiyədəki hərbi çevrilişin uğurla nəticələnməsini istəyiblər. Türkiyə Silahlı Qüvvələri qiyamın detalları ilə bağlı yeni məlumatlar açıqlayıb. Rəsmi məlumatda bu sözlər yer alıb:** "Çevriliş cəhdinin Türkiyə Silahlı Qüvvələrində vətənini, millətini, bayrağını sevən əksəriyyətlə qətiyyən heç bir əlaqəsi yoxdur".

Hərbi çevriliş cəhdindən sonra həyata keçirilən həbslər də davam edir. İyulun 19-da Sivas qarnizonunun komandanı, general Fatih Cəlaləddin Sağırlə birgə daha 7 hərbçi saxlanılıb. Həmin gün bu, Türkiyə Quru Qoşunlarının Təlim və Doktrina Komandanlığının (EDOK) müxabirləşməyə dəstək təhsili komandanı, korgeneral Metin İyidili də həbs edilib. Qardaş ölkədə qiyamla bağlı hərbi qulluqçuların da məzuniyyətləri baş nazir Binəli Yıldırımın imzaladığı sərəncamla ləğv olunub. Məzuniyyətdə olan qulluqçular geri çağırılıb.

15 iyun qiyamı ilə bağlı 2 vertolyot və 25 xüsusi təyinatlı əsgər yoxa çıxıb. "Hürriyet" qəzeti xəbər verir ki, hadisə baş verən an iki vertolyot naməlum məntəqədən Marmaris istiqamətində havaya qalxıb. Onların məqsədi ölkə prezidenti Rəcəb Tayyib Ərdoğana qarşı əməliyyatda iştirak etmək olub. Məlumata görə, helikopterlər hələlik bilinməyən ərazidə qısa müddətə yerə enib, sonra isə yoxa çıxıb. Vertolyotların 25 nəfər xüsusi təyinatlı əsgəri göyərtəsinə qəbul edəcəyi planlaşdırılıbmış. Amma çevriliş cəhdinin uğursuzluğa düçar olmasından sonra onlar naməlum istiqamətdə yoxa çıxıb.

**Baş nazir B.Yıldırım Gülənin ekstradisiyası ilə bağlı danışıb:** "Amerikalı dostlarımdan soruşuram, 11 sentyabrda əkiz qüllələr vurulan zaman terrorçuların təhvil verilməsini tələb edərkən sübut istəmişdiniz? Bin Laden üçün sübut toplamazkən FETÖ üçün niyə israrla sübut istəyirsiniz? Bu terrorçubaşını daha artıq qorumayın. Bunun nə sizə, nə də insanlığa faydası var. Heç kim qüsura baxmasın, bu paralel terror təşkilatı artıq heç bir ölkə üçün əlverişli maşa deyil. Onu boşuna bəsləməyin. Paralel terrorun kökünü kəsəcəyik".

Xarici işlər naziri Mövlud Çavuşoğlu Gülən məsələsini həll etmək üçün Amerikaya gedir.

**Sabiq MTN-çi, Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər hazırda AKP iqtidarının qazandığı uğurdan necə istifadə edəcəyinin əsas məsələ olduğunu bildirdi:** "Bu uğur başgicəllənmə, rəqibləri sıradan çıxarmaq siyasətini ortaya çıxaracaqsa, bu, demokratiyanın ziyanına olacaq. Əks halda, baş vermiş hadisədən ciddi nəticə çıxarılacaqsa, cəmiyyətdə həmrəylik yaradılacaqsa, bu, bütövlükdə Türkiyənin xeyrinə işləyəcək. Həqiqətən ciddi bir hadisə baş verib. İlk dəfədir ki, türk demokratiyası qalib gəlib. Bundan öncə dəfələrlə hərbi çevrilişlər olub, bu yöndə təhdidlər olub ki, hamısı da qalib gəlib. İlk dəfədir ki, xalq hakimiyyəti müdafiə edib, tankların önünə çıxıblar. Türk demokratiyası öncəliklə öz yetkinliyini göstərdi. Hadisələr düzgün qiymətləndirilsə, demokratiya yeni inkişaf mərhələsinə qədəm qoyacaq. İndiyə qədər Türkiyə demokratiya sahəsində inkişafda olan dövlət sayılırdı. Artıq bunun inkişaf etmiş dövlət olmasına şans yaranıb. Hadisənin ikinci əsas əhəmiyyəti odur ki, dünyada İslam və demokratiyanın uyuşması barədə müzakirələr gedirdi. Türk xalqı bu diskussiya üçün ciddi arqument verdi. Dünyaya mesaj verildi ki, türk xalqı qanı bahasına demokratiyanı qoruya bilər. Hökumət siyasi təmizləmə aparacaqsa, bu, təhlükəsizlik və idarəçilikdə geriləməyə səbəb ola bilər. Qısa zamanda itkilərin yerini doldurmaq çox çətindir. Hər şey AKP iqtidarının yaranmış vəziyyətdən necə istifadə etməsindən asılıdır".

**Ekspert rus təyyarəsini vuran türk pilotları və edam qərarının gündəmə gəlməsi barədə də danışdı:** "Bununla mesaj veriləcək ki, məqsəd Türkiyə-Rusiya münasibətlərini korlamaq olub. Bunun həmin qrupun işi olduğu deyiləcək. Bir insanı öldürmək ən ağır cinayətdir. Dövlət qanunla cəzalandırmalıdır. Parlament bu qərarı qəbul edərsə, demokratiyaya ziyan verə bilər. Ölkənin xarici nüfuzuna da xələl gələr".

❑ **Cavanşir ABBASLI**

**Hərbi çevrilişdən bəhs edən o kitab barədə bir-iki il əvvəl də yazmışam, amma indi söhbət aktualdır deyə, yenə yazıram - dəfə bir az təfərrüatlı şəkildə. Hələ onu da deyim ki, amerikalı yazarlar Fletçer Nibel və Çarlz Beylinin o məşhur romanını ana dilimizə özüm çevirmişəm. Təvazökarlıqdan Kapotoli təpəsi qədər uzaq olsa da, deyim ki, yaxşı alınıb.**

**Samir SARI**



# Polkovnik Keysi hərbi çevrilişin qarşısını necə aldı...

O vaxt mən deyəndə ki, Şahbaz bəy, bu romanı tərcümə eləmək lazımdır, naşir qardaş məsələyə bir az skeptik yanaşdı. Amma direşdim, dedim, bu, dünyanın 50 ölkəsində tərcümə olunub, hamısında da bestseller olub.

Zarafat deyil, söhbət ABŞ kimi bir dövlətdə ordu komandalarının birləşərək qanuni prezidenti devirməyə cəhd etməsindən, türkün sözü, darbə girişimindən gedir.

Tarixdə belə bir hadisə gerçəkdən də baş veribmi, verməyibmi, bunu təsdiq edən yoxdur, amma müəlliflərdən birinin Pentaqona və Ağ Evə girib-çıxan jurnalistlərdən olması dolayısı ilə sübut edir ki, adam havayı yerdən bu qədər dinamik süjet uydura bilməzdi.

Hərbçilərin qiyamının dəf edilməsinin əsas səbəbkarı Pentaqonda işləyən bir polkovnik olur. Adam növbədə olduğu bir bazar günü gəvəzə bir zabitin çərənləməsindən aldığı informasiyadan quşqulanır ki, ortada nəsə bir oyun var. O, şübhələrinin ya dağılması, ya da dərinləşməsi üçün bir az araşdırma aparır, görür ki, bay, baş qərargah rəisi digər qoşun komandanlarının çoxu ilə birləşib və bir həftə sonraya qiyam təyin edib.

Belə olanda polkovnik Ciqs Keysi ləngimədən cumur Ağ Evə, birtəhər prezidentlə görüşür, şübhələrini ona deyir, əsaslar göstərir. Siqnalı alan prezident təcili tədbirlər görməyə başlayır. Yox, o dərhal xalqı küçələrə çağırmır, bütün növ qoşunları, qvardiyanı, yerlilərini, idman federasiyalarında birləşən idmançıları, büdcə təşkilatlarında "çörək verdiyi" şəxsləri, kilsədə çalışan rahibləri köməyə çağırmır, cəmi 9 nəfərdən ibarət yaxın adamlarını yığır, məsləhətləşir.

Prezidentin adamları üç bölgüsü aparırlar, generallara qarşı dəlil-sübut toplamağa başlayırlar. Çünki generalların rəhbəri Skott ölkədə populyar və sevilən, üstəlik, ağıllı və xarizmatik adamdır, prezident anlayır ki, ona qarşı dəlil-sübutsuz bir çıxış eləsə, adam işin içindən sıyrılar, xalq onun tərəfini tutar.

Xüləs, polkovnik Keysi general Skotta qarşı fakt tapmaq üçün Vaşinqtondan Nyu-Yorka gedir, orda onun bəzi ələqələrini, o cümlədən nikahdankənar eşq macərasını üzə çıxarır. Paytaxta qayıdıb gələndə Keysinin arvadı ərini "lotuşka" yanına qaçmaqda suçlayır, o da axırda gedib prezidentə gileylənir ki, çevriliş qabağı aldığım deyil, arvad dünyanın başıma çevirir. Prezident götürüb polkovnikin arvadına zəng edir, deyir, kişidən bədgüman olma, onu ora-bura mən göndərirəm.

Fövqəladə qərargahın o biri üzvləri də dəlillər toplayırlar. Məlim olur ki, general Skott xüsusi bir kommandos bazası yaradıb, amma rəsmən qeydə alınmayıb. Ən ümdəsi bu hərbi birlik strateji obyektlərin ələ keçirilməsi üzrə təlim keçir, məşq edir. Prezidentin xüsusi nümayəndəsi qiyama qoşulmuş admirallardan birindən ifadə almaq üçün Cəbəllütariqə uçur, ifadə alır.

Günlər irəliləyir, sənədlər, dəlillər toplanır. Çevrilişin nəzərdə tutulduğu gün yetişir. Həmin gün hərbi təlim olmalıdır və orada general Skottun adamları prezidenti girov götürməlidirlər. Təlim-çevrilişə bir gün qalmış prezident deyir ki, heç bir təlim olmayacaq və qərargah rəisini kabinetinə çağırır. O, əldə etdiyi bütün sənədləri *(birindən başqa)* ortaya tökür. Prezident deyir, general deyir, söz güləşdirirlər. Axırda prezident generala sübut edir ki, o düz yolda deyil, onun hərəkəti Amerika xalqına xəyanətdir. General üzüsulukən istefa verib, təqaüdə getməyə razılaşır. O, qapıdan çıxanda prezident onun eşq macərasına, eləcə də məşuqəsinin vergidən yayınmaq üçün generala ziyafət verməsinə dair düzəltdiyi saxta sənədlər olan qovluğu onun qoltuğuna verib deyir ki, bunu da götür, lazım olmayacaq. (Bundan əvvəl prezident öz dostlarına deyir ki, devrilsə də, bu şantaj xarakterli materialdan Skotta qarşı istifadə etməyəcək).

Daha sonra prezident artıq nələrisə iyləyib-çüyləmiş media nümayəndələrinin qarşısına çıxır. Onlar generallarla prezidentin arasındakı gərginlik, hərbi çevriliş təhlükəsi barədə çoxsaylı suallar verirlər. Prezident deyir ki, elə şey yoxdur, sadəcə, general Skottla aramızda fikir ayrılığı vardı və mən xalq tərəfindən seçilmiş prezident olduğuma görə o, istefa verməli oldu.

Maraqlı məsələdir. Bir köşədə hamısını yazıb çatdırmaq mümkün deyil. İbrətamiz məqamlar var. Məsələn, prezident bir hərbi çevriliş məsələsini ona görə ictimailəşdirmək istəmir ki, Amerika xalqının orduya, əsgərə inamı sarsılmasın, cəmiyyətdə parçalanma baş verməsin.

İndiki çevrilişlərə baxırsan, görürsən, yox, həm çevrilişi hazırlayanlar, həm də onun qarşısını alanlar naşılıq ediblər.

Amma bir iş də var ki, Pentaqondakı o zəvzək zabit çərənləyib Keysini oyandırmasaydı, yəqin ki, general Skott prezidenti devirəcəkdi.

Görəsən, 15 iyul günü Ankarada hansı zabit zəvzəyib?

YENİ MÜSAVAT
N 156 (6477) 20 iyul 2016

**Paytaxtda xidmət göstərən əksər avtobuslardakı natəmizlik sərnişinlərin narazılığına səbəb olur. Xüsusən də yay aylarında bu natəmizliyin müxtəlif infeksion xəstəliklərə yol aça biləcəyini düşündükcə, insanlar bu avtobuslara minərkən bir daha düşünməli olurlar. İstifadəyə yeni buraxılan "BakuBus" avtobuslarından başqa demək olar ki, digər əksər avtobuslar xəstəlik mənbəyidir.**

# Sərnişin avtobusları xəstəlik mənbəyidir

## Bir sıra avtobuslarda kimyəvi təmizlik işləri aparılmır, sərnişinlər illərlə yığılan çirk və tozun içərisində mənzil başına getməli olurlar









Bu avtobusların xaricləri və daxilləri toz içərisində olur, oturacaqlarının rəngi isə çirkdən ərp bağladığı üçün seçilmir. Yay aylarında kondisionersiz olan bu avtobuslarda istidən birtəhər olan sərnişinlər həm də bu çirk problemi ilə üzləşirlər. Ümumiyyətlə, ictimai nəqliyyatda istifadə olunan avtobusların təhlükəsizliyi təkcə onların təzəliyi, texniki sazlığı və ya xarici görünüşü ilə ölçülmür. Nəzərə almaq lazımdır ki, bu avtobuslardan gün ərzində yüzlərlə sərnişin istifadə edir və bu insanların içərisində müxtəlif yoluxucu xəstəliklərin daşıyıcısı olanlar da ola bilər. Eyni zamanda yoluxucu xəstəliklərin natəmiz və rütubətli şəraitdə yayılma ehtimalının daha çox olduğunu nəzərə alsaq, bu sahədə fəaliyyət göstərən sərnişindaşıma şirkətlərinin üzərinə düşən məsuliyyətin nə qədər ciddi olduğunu təsəvvür etmək olar. Bu baxımdan, sərnişin nəqliyyatında istifadə olunan avtobusların içərisində gündəlik olaraq təmizlik və salonda, xüsusilə tutacaqlarda kimyəvi təmizliyin aparılması və xəstəliklər yaradan virusların, müxtəlif mikroorqanizmlərin təmizlənməsi, sərnişinlərin təhlükəsizliyi üçün çox vacib şərtlərdəndir.

Təəssüf ki, bu gün paytaxtımızda sərnişindaşıma sahəsində fəaliyyət göstərən bir sıra avtobuslarda nəinki kimyəvi təmizlik işləri aparılır, hətta onların içərisində müxtəlif məişət tullantılarını, siqaret kötüklərini, oturacaqlarda isə illərdən bəri yığılan çirk və tozun qalıqlarını aydın şəkildə görmək olur. Oturacaqları çirkdən ərp basmış, salonunun rəngi tozdan bilinməyən bir neçə avtobusun sürücüsü ilə söhbətləşdik.

**"Adımızı yazıb bizi işimizdən etmə" deyərək danışmağa tərəddüd edən sürücülər avtobusların hər gün xəttə çıxmadan öncə qarajda yuyulub təmizləndiyini deyirdilər:** "Texniki müayinədən keçən avtobusların hamısı xəttə yuyulub çıxır. Amma gün ərzində sərnişinlər bu avtobusları bərbad vəziyyətə salırlar. Kimisi avtobusun içində tum çırtlayır, kimisi salfet tökür, kimisi isə tüpürür".

**Bir sıra sürücülər isə bunu artıq avtobusların köhnəliyi ilə əlaqələndirirdi:** "Bu avtobusların istismar müddəti bitib. Xəttə yeni avtobuslardan buraxsalar yaxşı olardı. Həm də biz kəndlərə, Bakıətrafı qəsəbələrə işləyirik. Oranın da yolları toz-torpaq içərisindədir. İstər-istəməz qapı açılıb örtüləndə toz-torpaq içəri daxil olur".

**Söhbətə qatılan bir neçə sərnişin də mövcud vəziyyətdən narazı idi. Sərnişin Xatirə Məmmədova xüsusən də yay aylarında bu cür avtobusların dözülməz olduğunu deyirdi:** "Günəş şüaları düşəndə avtobusun salonundakı tozu açıqca görmək olur. Bu toz-torpaq bizim ciyərlərimizə gedir. İnsan oturacaqda oturmağa iyrənir. Üstəlik, kondisioner də yoxdur. Heç olmasa pəncərələrə qara pərdə vursunlar ki, içəriyə gün düşməsin".

**Az sayda xəttə buraxılan "BakuBus" avtobuslarında hələ ki bu neqativ hallar müşahidə edilmir. "BakuBus" avtobuslarının hər gün təmizləndiyini deyən "BakuBus" MMC-nin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Mənsur Piriyev bu avtobusları daxili və xarici yuyulmadan sonra hər gün dezinfeksiya edildiyini dedi:** ""BakuBus" avtobusları hər gün qrafik üzrə marşrut xəttindən qayıtdıqdan sonra texniki baxış və kompüter diaqnozundan keçir. Xarici və daxili yuyulmadan sonra isə xüsusi kimyəvi məhlullarla dezinfeksiya edilir. Dezinfeksiya işləri mütəxəssislər tərəfindən və kimyəvi təmizlik üçün tibb də istifadə olunan vasitələrlə həyata keçirilir. Onu da deyim ki, bu sahədə beynəlxalq standartlar mövcuddur. Bildiyimiz kimi, böyük şəhərlərdə, meqapolislərdə yoluxucu xəstəliklərin sürətlə yayılmasında təhsil ocaqları ilə yanaşı sərnişin nəqliyyat vasitələrinin də rolu böyükdür. Bu baxımdan, avtobusların təmizliyi və təhlükəsizliyindən danışanda söhbət həm də avtobusların kimyəvi təmizliyindən və profilaktik olaraq dezinfeksiya işlərinin aparılmasından getməlidir. "BakuBus" olaraq biz bu sahəyə xüsusi önəm veririk və dezinfeksiya işlərini qəbul olunmuş standartlara uyğun şəkildə həyata keçiririk. Çünki sərnişin nəqliyyatında təhlükəsizlik və rahatlıqdan söhbət gedirsə, sərnişinlərin sağlamlığını, sağlam mühitdə daşınmasını unutmaq olmaz. Bu sərnişinlər təhlükəsizliyin tərkib hissəsidir".

**Yol hərəkəti üzrə ekspert, hüquqşünas Ərşad Hüseynov avtobusun çirkli saxlanmasına görə 70 manatdan 100 manatadək cərimə nəzərdə tutulduğunu bildirdi:** "Daşıyıcılar avtobusları təmiz saxlamalıdır. Nazirlər Kabinetinin 2009-cu ildə qəbul olunmuş avtomobil nəqliyyatı ilə sərnişindaşıma haqqında qanunu var. Orada daşıyıcıların, yəni avtobusların üzərinə düşən vəzifələrdən biri odur ki, avtobus sahibi avtobusu sanitar gigiyenik qaydalara uyğun bir vəziyyətdə saxlasın və sərnişinlərə bu cür təqdim etsin. Bunun da həyata keçirilməsi üçün təbii ki, avtobus hər gün təmizlənməli, dezinfeksiya edilməlidir. Çirklənmə olanda kimyəvi təmizlənmə həyata keçirilməlidir. Əgər avtobusda çirk ərp bağlayıbsa, onu xüsusi kimyəvi məhlullarla təmizləmək lazımdır. Hətta müəyyən hallarda avtobusun müəyyən hissələri xüsusi məhlullarla dezinfeksiya olunmalıdır. Müasir dövrdə çox maraqlı texnologiyalar var ki, bu təmizlik işini qısa müddətdə çox asanlıqla həyata keçirmək olar. Sadəcə olaraq, bunu icra etmək lazımdır. Elə iri şirkətlər var ki, onlarda bu texnologiya var və onlar öz avtobuslarını bu cür texnologiya ilə təmizləyə bilirlər. Amma xırda daşıyıcılar, fərdi avtobuslar, xüsusən də Bakı kəndlərinə işləyən avtobuslarda təmizlik səviyyəsi bərbaddır. Əgər nəqliyyat gigiyenik normalara uyğun olmadan sərnişinlərin istifadəsinə verilirsə, nəqliyyatın sahibi 70 manatdan 100 manatadək cərimə oluna bilər".

❑ Günel MANAFLI
❑ Fotolar müəllifindir

## Ana olan məktəbli qızların statistikası açıqlandı



**Azərbaycanda nikah yaşı çatmayan qızlar tərəfindən doğulan körpələrin sayı məlum olub.**

2015-ci ildə nikah yaşı çatmayan 15-17 yaşlı qızlar tərəfindən 3 minə yaxın körpə dünyaya gətirilib.

Statistika Komitəsindən azvision.az-ın sorğusuna cavab olaraq bildirilib ki, Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 2015-ci ildə ölkədə 166,2 min körpə qeydə alınıb.

Məlumatda bildirilib ki, ötən il doğulan körpələrin 2895 nəfəri 15-17 yaşda qadınlar tərəfindən dünyaya gətirilib. Onlardan 1003 nəfəri şəhər, 1892 nəfəri isə kənd yerləri üzrə qeydə alınıb.

Ailə Məcəlləsinə əsasən, Azərbaycanda nikah yaşı 18 yaş müəyyən edilir. Üzürlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilər.

Cinayət Məcəlləsinə əsasən, nikah yaşına çatmayan şəxsi nikaha daxil olmağa məcbur etməyə görə üç min manatdan dörd min manatadək miqdarda cərimə və ya dörd ilədək müddətə azadlıqdan məhrum etmə nəzərdə tutulur.

## 10 nəfəri gün vurdu



**Bu il istilər başlayandan günvurma diaqnozu ilə Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına 10 müraciət daxil olub.**

Bunu virtualaz.org saytına Bakı Şəhər Təcili və Təxirəsalınmaz Yardım Stansiyasının həkimi Rauf Nağıyev deyib.

Onun sözlərinə görə, yalnız bir nəfər xəstəxanaya yerləşdirilib.

Amma iyulun ikinci ongünlüyündən havanın hərarəti yüksələrək 39-41 dərəcəyə çatacaq. Deməli, günvurma mövsümü də başlayacaq.

Həkimlər günvurmadan qorunmaq üçün saat 11:00-18:00 arası açıq havada olmamağı məsləhət görürlər. Gün vuran şəxs kəskin başağrısı, başgicəllənmə, halsızlıq, ümumi zəiflik, ürəkbulanma, qusma, bədən temperaturunun 40 dərəcədən çox yüksəlməsi, dərinin qızarması, nəbzin tezləşməsi, ürək ritminin pozulması, qulaqlarda küy, huşun itirilməsi ilə müşahidə edilir. Ağır dərəcəli günvurma ölümlə nəticələnə bilər. Buna görə də gün vuran şəxsi sərin yerdə uzatmaq, sərin su içirtmək, alınını soyuq su ilə silmək lazımdır. Bundan sonra isə həkimə müraciət etmək lazımdır.

YENİ MÜSAVAT
N 156 (6477) 20 iyul 2016

# 70-dən çox ölkədə edam cəzası hələ də qalır

## Dünyada edam ən çox Çin, İran, Pakistan, ABŞ, Səudiyyə Ərəbistanı, İraq və Vyetnamda icra olunur

**Türkiyədə edam cəzası yenidən bərpa oluna bilər. Bu barədə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Kısıklıda açıqlama verib. O, edam şüarlarına cavabında "xalqın tələbini əsla yox saya bilmərik" deyə, açıqlama verib. "Edam mövzusunda mütləq bir qərar veriləcəkdir. Qardaşlarım, sizin bu tələbinizi hökumət olaraq da, dövlət olaraq da bilirik, duyuruq. Sizin bu tələbinizi biz yox saya bilmərik. Demokratiyalarda xalq nə deyirsə odur. Bu mövzunu elə zənn edirəm ki, hökumətimiz ana müxalifliyi görüşmək surəti ilə mütləq bir qərar veriləcəkdir. Hazırda Amerika, Qərb hamısına hökumətimiz yazılı mesajları göndərəcək. Terrorist başı, Fətullahçı terror təşkilatının başçısını ABŞ-dan istəyəcəyik", deyə Ərdoğan xalqa açıqlama verib.**



**Avstriya xarici işlər naziri Sebastyan Kurts** Türkiyədə hərbi çevrilişə cəhddən sonra edam cəzasının tətbiq edilməsinin Avropa İttifaqı üçün qəbuledilməz olduğunu deyib. Onun sözlərinə görə, edam cəzasının tətbiq edilməsi tam qəbuledilməzdir: "Türkiyə aydın başa düşməlidir ki, edam cəzasının saxlanılması tərəfimizdən amansız və qeyri-insani cəza forması kimi rədd edilir".

S.Kurts qeyd edib ki, Avstriya Xarici İşlər Nazirliyi vasitəsilə Avropanın Türkiyədən müəyyən hədlərə riayət edilməsini tələb etməsini təkid edir.

Qeyd edək ki, Türkiyədə gerçəkləşən son edam cəzası 32 il bundan əvvəl baş verib. Türkiyə Genel Məclis Qurumu tərəfindən ləğv edilən edam cəzası respublikanın tarixi boyunca, yəni 1920-1984-cü illər arasında tam 712 dəfə tətbiq olunub. Ancaq bu rəqəmə Türkiyə Böyük Millət Məclisi Nəzarət xaricindəki İstiqlal Məhkəmələrinin qərarı ilə edam edilənlər daxil deyil. 1925-ci ildə əsas olaraq irtica fəaliyyətlərinə qarşı qurulan bu məhkəmələrin ən az min adam haqqında edam qərarı çıxartdığı bildirilir. İstiqlal məhkəmələri xaricindəki edamların ilk əhəmiyyətli nümunəsi "Menemen" hadisəsindən sonra yaşanıb. 1930-cu ilin 23 dekabrında Menemendə ehtiyatda olan kiçik leytenant Kubilay bəyin şəhid edilməsi hadisəsi ilə əlaqədar olaraq 105 şahiddən 37 nəfəri ölüm cəzasına məhkum edilib. Məclis, bunlardan 28 nəfərinin ölüm cəzalarının yerinə yetirilməsi qərarı verilib. Türkiyə tarixinin casusluq səbəbi ilə tək edamı isə 1949-ci ildə baş verib. Sovetlər Birliyinə casusluq etdiyi aşkarlanan Aram Şanesyan adlı şəxs asılaraq edam edilib. 1961, 1970 və 1980-cı illərdə yenidən hərbi çevrilişlər olub. Türkiyə müstəqillik qazandıqdan sonra, dəqiq desək, 1960-cı ilin yazında əhali Ankarada etiraz nümayişlərinə çıxıb. Həmin ildə hərbiçilər hakim Demokrat Partiyasının rəhbərlərini həbs edib və baş nazir Adnan Menderes, maliyyə və xarici işlər naziri edam olunub. 5 iyul 1964-cü ildə isə iki əsgər, Kara Harp Məktəbinin komandiri Talat Aydemirlə Süvari Birliyi Komandiri Fəthi Gürcan rəhbərliyi ələ keçirmək üçün çevrilişə cəhd etdikləri üçün edam ediliblər.

Xatırladaq ki, hazırda 70-dən çox ölkədə edam cəzası hələ də qalır. Ölüm hökmü dünyada ən çox Çin, İran, Pakistan, ABŞ, Səudiyyə Ərəbistanı, İraq və Vyetnamda icra olunur. Türkiyədə edam cəzası 2002-ci ildə qismən *(ağır cinayətlər istisna olmaqla)*, 2006-cı ildə isə tam ləğv olunub. 1920-1984-cü illərdə Türkiyə Böyük Millət Məclisi 712 edam qərarını dəstəkləyib. 14 dəfə keçirilən İstiqlal Məhkəməsində isə yüzlərlə insan edam edilib.

Müasir dünya praktikasında xüsusilə ağır cinayət törədən qatillər, manyaklar edam edilir. Bəzi ölkələrdə narkotik tacirləri, təcavüzkarlar, Çinin bəzi əyalətlərində isə hətta oğrular da edam olunur. İranda isə narkotik tacirləri, narkotikin yayılmasında iştirak edənlər barədə ölüm hökmü çıxarılır. Dünyanın 75 ölkəsində edam cəzasının tətbiqi sadaladığımız cinayətlərə görə ləğv edilib. 14 ölkədə müharibə zamanı törədilən cinayətlər üçün edam cəzası saxlanılır. 20 ölkədə edam cəzası qanunda olsa da icra edilmir. Türkiyədə isə 1984-cü ildən ölüm cəzaları tətbiq edilmir. Məlumatlara görə, vətəndaş rəhbərliklər tərəfindən ildə ortalama 2 edam reallaşdırılıb, hərbi rəhbərliklər əsnasında ildə ortalama 13-dən çox adam edam edilib.

Xatırladaq ki, tarix boyu edam cəzaları müxtəlif üsullarla həyata keçirilib. Bir sıra ölkələrdə edam cəzası təqsirləndirilən şəxsin asılmasıdır. Ancaq keçmişdə edam cəzalarının tətbiqi daha dəhşətli olub. Məsələn, bu cəza tətbiqində fillə tapdalama, ata qoşub dartmaq, suda boğma, boğma qəfəsinə salmaq, çarmıxa çəkmə, şaqqalama, vəhşi heyvanlara yem etmə, ilanların içinə atmaq, diri-diri basdırmaq, oda atmaq, yüksəklikdən atmaq və sairə kimi dəhşətli edam növləri mövcud olub. Müasir dövrümüzdə isə bir çox ölkələrdə hətta ən qatı cinayətkar belə edam olunmur. Bunun əvəzinə ömürlük həbs cəzası alır.

❑ **Günel MANAFLI**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarn dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Elan**

**Qəbələ rayonunun Vəndam kəndində gözəl bir meyvə bağı satılır. 60 sot sahəsi var, 86 ağac, qoz, şabalıd, qızıl əhmədi alması, fındıq, hamısı bar verir. Bağ dağ ətəyindədir, kvadratdır, qazı, işığı, suyu var. Çox gözəl bağdır. Xeyir iş səbəbindən çox münasib qiymətə satılır.**
**Əlaqə telefonu: (070) 335-90-15.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

bakcell

**1 MB internet = 1 qəpik indi Rusiyada!**

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti 1 MB = 1 qəpik kampaniyasının aktiv olduğu ölkələrin siyahısına Rusiyanı da əlavə edib. Rusiyada səfərdə olan «Bakcell» abunəçiləri Meqafon mobil operatoruna qoşulduqda hər MB üçün cəmi 1 qəpik ödəyərək yüksəksürətli internetdən istifadə edə biləcəklər. Bu təklifdən yararlanmaq üçün abunəçilər sadəcə *125#1000#YES yığaraq rouminq internet paketini aktivləşdirməlidirlər.**

**Hazırda dünyanın 21 ölkəsində olan abunəçilərimiz bu imkandan yararlana bilirlər. Həmin ölkələrin siyahısı belədir: Türkiyə, ABŞ, BƏƏ, Rusiya, Yunanıstan, Almaniya, Böyük Braitaniya, Çexiya Respublikası, İspaniya, Macarıstan və s.**

**«Bakcell» getdikcə daha çox ölkədə abunəçilərinə ən sərfəli qiymətlə yüksəksürətli internet xidməti təklif etmək üçün rouminq tərəfdaşları ilə danışıqlar aparır.**

**Səfərdə olan «Bakcell» abunəçiləri "«Bakcell» Roaming" mobil tətbiqindən istifadə etməklə bütün tərəfdaş rouminq ölkələrində və operatorlarında zəng, SMS və internet qiymətləri və rouminq xidməti üzrə cari kampaniyalar haqqında bütün məlumatları əldə edə, eyni zamanda, «Bakcell»-lə onlayn əlaqə yaradaraq dəstək ala bilərlər. Bundan əlavə, abunəçilər bu tətbiq vasitəsilə öz nömrələrinin balansını asanlıqla artırırlar. ««Bakcell» Roaming» mobil tətbiqi haqqında daha ətraflı məlumat üçün bu linkə daxil olun: http://www.«Bakcell».com/az/«Bakcell»-rouminq-ap**

YENİ MÜSAVAT
N 156 (6477) 20 iyul 2016

# ""Azdrama"nı da uçurmaq istəyirdilər"

## Nurəddin Mehdixanlı: "Milli kimliyimizi xatırladan, dostunun, düşmənininin kim olduğunu göstərən məkanlara, insanlara xüsusi diqqət yetirilməlidir"

**Xalq artisti Nurəddin Mehdixanlı ilə görüşümüz Akademik Milli Dram Teatrda (AMDT), mövsümə yekun vurulan gündə baş tutdu. Bir il bundan əvvəl adı yaradıcılıqdan daha çox qalmaqallarda hallanan, bu cür olaylardan bitib-tükənən xalq artistinin bu dəfə şən əhval-ruhiyyəli, enerjili olduğunu görməmək mümkün deyildi.**



*Söhbətə müsahibimin özü başladı:*

- Bu gün teatrın mövsümünün bağlanış günüdür. Biz həmişə mövsümü "Qarabağnamə" tamaşası ilə açır, elə bu tamaşa ilə də bağlayırıq.

***- 1 il ərzində Akademik Milli Dram Teatrında nələr dəyişdi, nələr baş verdi?***

- Teatr yaradıcı bir yerdir. Ona görə də yaradıcı məkanların başında yaradıcı, qərəzsiz adamlar olmalıdır. Bu mənada hesab edirəm ki, ilk növbədə burada daxili atmosfer dəyişdi, bir-birinə qarşı olan insanlar indi bir-birilərinin yanındadırlar. Teatrda həqiqi mənada bir yaradıcılıq atmosferi var. Hamı işləyir, çalışır. Millətin millət kimi formalaşmasına xidmət edən, tarixini, taleyini onun özünə danışan, milli kimliyini özünə göstərən və hər an xatırladan, dostunun, düşməninin kim olduğunu göstərən məkanlara, insanlara xüsusi diqqət yetirilməlidir. Onlar söz, sənət, ədəbiyyat, teatr, musiqi, təhsil, səhiyyə adamlarıdır. Bütün bunlar olmadan var olmaq mümkün deyil.

O adamlarla razı deyiləm ki, "kiminsə dəyişməsi heyinə dəyişmir" deyir. Yanlışdır! Kimsə dəyişirsə, deməli, yerinə yeni kimsə gəlir. Və deməli, artıq orda işə, işçiyə münasibət dəyişir. Bu mənada hesab edirəm ki, AMDT-də dəyişiklik edilməsi vacib idi. Dəyişiklik, islahat adına gələnlərin çoxu buna aid olmayan işlərlə məşğul olurdular. Bəlkə də onlar özlərini haqlı hesab edə bilərlər. Lakin ədalətli baxış onu göstərdi ki, xeyr, gedən proseslər doğru deyil. Ona görə də lazım bildilər və dəyişiklik baş verdi. Hər halda, kollektivin fikri eşidildi. Bilirsiz ki, o zaman bizim kollektivimiz məktub vasitəsilə dövlət başçısına müraciət etdi və az bir zaman ərazində bütün bu dəyişikliklər baş verdi.

Hesab edirəm ki, baş verənlər teatrın xeyrinə oldu. Bu gün teatrın bədii rəhbəri var. Əslində yaradıcı yerlərdə belə də olmalıdır. Teatrın ümumi yaradıcılıq stratejisini, planlarını bədii rəhbər müəyyənləşdirir. Baxın teatrımızın tarixinə, o zaman teatrlarımız yüksəlişdə olublar ki, teatrın başında duran adam məhz yaradıcı adam, rejissor olub. Adil İskəndərov, Mehdi Məmmədov, Tofiq Kazımov, yəni bunlar təsadüfi adamlar deyillər və bunlar nə zaman teatrın başında olublar, "Azdrama" uğurlar qazanıb. Amma nə zaman ki, teatrın başında qeyri-yaradıcı adamlar olub, o zaman teatrda problemlər olub. Yaradıcı insanlar daha çox birləşdirməyə çalışıblar, bu inzibatçılar isə daha çox "parçala, hökm et!" texnologiyası ilə işləyiblər.

Beləliklə, gedənə yaxşı yol deyirik, işlərində uğurlar arzulayırıq, bizim heç kəslə düşmənçiliyimiz yoxdur. Sadəcə, biz istəyirdik ki, ömrümüzü, həyatımızı verdiyimiz, millətimizin çox böyük bir mədəni, milli sərvəti olan teatrımızın haqqı özünə qayıtsın. Evimizi, yuvamızı qoruduq, müdafiə etdik və bu gün də burada çalışırıq. Hesab edirəm ki, Azər Paşa Nemətin teatrımıza gətirilməsi az müddət olsa da öz nəticələrini verdi, hazırda teatr artıq öz yaradıcılıq reysinin üzərindədir. Bu gün özünə uyğun, ona lazım olan repertuarı seçib tamaşaları hazırlayır. Teatrın səhnəsində böyük klassikimiz Cəlil Məmmədquluzadənin "Ölülər" əsəri Azər Paşa Nemət tərəfindən tamaşaya qoyuldu və bu, teatrımız üçün böyük hadisəyə çevrildi. Onun arxasınca rus klassiki Qoqolun "Müfəttiş" əsəri tamaşaya qoyuldu. Teatrın böyük heyəti bu tamaşada iştirak edirdi. Teatrın boynunda qalan problemlər, kommunal borclar var idi, biz bu məsələlərin hamısını həll edib tamaşalarımızı təqdim etdik.



***- Bugünlərdə "Sovetski"də Azərbaycan teatr mədəniyyətinin öncüllərindən olan Abbas Mirzə Şərifzadənin ev-muzeyi dağıdıldı. Bu məsələ ilə bağlı öz iradınızı, etirazınızı bildirdinizmi?***

- Birincisi, ora Abbas Mirzə Şərifzadənin ev muzeyi deyildi, bu yanlışı düzəldək, onun yaşadığı ev idi. Bugünlərdə "burada böyük tarixi abidələr sökülür" deyə söz-söhbətlər gəzir. Amma onu deyən adamlar ümumiyyətlə orada olmuşdular ki, bilsinlər doğrudanmı həmin yerlərdə böyük mədəniyyət abidələri var? Biz nəyə görəsə daş-kəsəyə daha çox dəyər veririk, nəinki canlı insanlarımıza. Şərifzadə nə zaman yada düşdü?! Hə, ancaq burda yaşadığı ev söküləndəmi? Onun kimi bir çox sənətkarlarımız var, bilirləmi onlar necə yaşayıblar, necə dünyasını dəyişiblər və bu gün hazırda yaşayan sənətkarlarımız var, bəs onlar necə yaşayırlar? Həm də o ev Şərifzadəyə layiq bir ev də deyildi... Onu desinlər ki, niyə Şərifzadənin adına bir böyük park salınmayıb və nədən bu parkda ona aid adi bir guşə yaradılmasın? Mən şəxsən Azərbaycanda bir daşın da yerindən götürülməsinə razı deyiləm, çünki bu bizim tariximizdir. Amma elə yerlər var ki, onlar doğrudan da təmizlənməli və getməli idi. Məscidləri və saire saxlayıblar. Görünür, məscid daha çox lazımdır, amma Şərfizadənin evi lazım deyil... Nə bilim, o qərarı verənlər verib. Yəqin ki, qərarı verən mən olsaydım, onun evini hansısa şəkildə orda saxlamağın mümkün olduğunu düşünərdim.

Siz ondan niyə danışmırsız ki, az qala "Azdrama"nın da bir tərəfini uçurdub aparsınlar?! Əbülfəz Qarayev və teatrın rəhbəri Azər Paşa Nemətin sayəsində teatra toxunulmadı. Çünki bizim teatr aşağı səkidən, divarların dibi ilə sökülməli idi. Arxa tərəfdən isə teatra əlillərin daxil olması üçün xüsusi yer, liftlət var, həmin sahə uçurulmalı idi. Biz gözümüzün qarşısında Əbülfəz Qarayev, Azər Paşa Nemətin bu işi görmək istəyən yüksək rütbəli insanlarla etdiyi mübahisələr və mübarizələrin şahidi olduq. Nəhayət, teatra toxunulmadı. Biz də etirazımızı bildirmişdik ki, teatra toxunularsa bütün kollektivlə buldozerlərin qarşısına çıxacağıq.

Sizin qəzet olduğuna görə demirəm, amma əlimi vicdanımın üstünə qoyaraq deyirəm ki, bu məsələlərdə həm sənətkarlarla bağlı, həm teatra olan münasibətdə "Yeni Müsavat" çox ədalətli mövqe tutdu. Bəzi media orqanlarında elə yazılar çıxırdı ki, ortalığa, utanırdın ki, mənim millətimin yazarıdır və həmin qəzet mənim ölkəmdə çıxır. Lakin "Yeni Müsavat" heç vaxt teatr və sənətkarlar ətrafında gedən ucuz söz-söhbətə qoşulmadı. Həmişə mövqeyini qorudu. Mənim bu qəzetə münasibətim də bu şeylərdən qaynaqlanıb.

Mən, ümumiyyətlə, daim qəzet oxuyanam. Çünki sənət adamıyam və bilməliyəm ki, insanlarımız nə düşünürlər, ölkədə nə baş verir, gənclik, orta yaşlı, yaşlılar nə düşünürlər.

***- Siyasəti də izləyirsiz?***

- Belə deyək, biz də bir zamanlar bu siyasətin içində olduq və zatən bu siyasətin içindən kənarda da deyilik (gülümsəyir). Sənətin özü də siyasətdir. Mən əgər ölkəmdə, ətrafımda baş verən məsələlərə kifayət qədər ciddi yanaşmasaydım, "Ölülər" tamaşası bu cür meydana çıxmazdı. Biz təzədənmi 100 il bundan əvvələ qayıdırıq?! 21-ci əsrdir, təzədənmi Şeyx Nəsrullahın əsiri oluruq?! Biz təzədənmi nəsrullahların əllərindən, ətəklərindən öpməyə qayıdırıq?! Din, İslam adı ilə ona aid olmayan işlər görülür, zidd olan addımlar atılır və susuruq. Bu gün yenə də millətimizin gözünü boyayırlar, yenə də şeyx nəsrullahlar hoqqabazlıq edir, yenə də onlar millətin əlində olan 3-5 manatı onun əlindən alırlar. Biz gözümüzə və üzümüzə deyilən yalanlara döz-dözə nə oluruq - dözümlü xalq. Allah bizim dözümümüzü əlimizdən alsın, gözümüzü açsın, dünyaya baxaq.

***- Bir zamanlar Nurəddin Mehdixanlı və digər sənətkarları geniş tamaşaçı auditoriyasına tanıdan, sevdirən "Pəncərədə işıq", "Solğun çiçəklər" kimi televiziya tamaşaları çəkilirdi. Bu gün niyə bu cür televiziya tamaşalarını görə bilmirik? Çatışmayan nədir - vəsait, maraq, yoxsa... ?***

- Məsələ burasındadır ki, biz dəmir pərdənin içərisində yaşayırdıq, bir televiziya kanalı var idi, orda nə çəkilirdisə hamımız ona baxırdıq. Amma indi dəmir pərdə götürülüb, dünya çox genişlənib. 10-15 il bundan əvvəl insanlarımız Braziliya seriallarına, daha sonra türk seriallarına baxırdılarsa, bu gün evlərində bir düyməni basmaqla istənilən kanalda istənilən filmi izləyə bilirlər.

***- Sonuncu dəfə sizi "Ölülər" tamaşasından sonra səhnə arxasında görmüşdüm. Obrazın təsirindən qan-tərin içində idiz, bir-iki söz danışmağa belə halınız yox idi. Maraqlıdır, aktyorun oynadığı tamaşalar, yaratdığı obrazlar sonradan onun sağlamlığına hansı zədələr vura bilir?***

- Bütün başqa peşə sahiblərindən fərqli olaraq bizim istifadəmizdə olan öz bədənimiz, əsəblərimiz, ürəyimiz, canımız, varlığımızdır. Aktyor obraz yaradarkən bir insanın əsəblərini, onun ağrı-acısını, sevincini yaşayır. Şübhəsiz ki, bu, insanın sağlamlığına zədələr vurur.

***- Daha çox psixoloji, yoxsa fiziki?***

- Bir çox mənalarda. Bu sənətdə olanlar daha çox ürək, əsəb xəstəliyinə tutulurlar. Aktyorlar uzun yaşamayan peşə sahibləridir... Kifayət qədər əsəb sistemini dağıdan bir peşədir.

***- Bu ilin oktyabrında artıq 60 yaşınız tamam olur. Geriyə boylananda nə sizi incidir, kövrəldir?***

- Mən çox şey edə bilərdim, amma mənə imkan vermədilər. Sənətdə həyatımın yarısını savaşa, mübarizəyə həsr etdim, yarısın da sənətimə. Mən ancaq 50 yaşımda kinoya gəldim, halbuki kinoda daha çox işlər görə bilərdim. Çox filmlərdə, sınaq çəkilişlərində baş rollara təsdiq olundum, amma çəkilənlər başqaları oldu. Mənim görə biləcəyim işlər var idi, hamısı qaldı. Ən böyük arzum Şah İsmayıl Xətaini oynamaq idi. Arzu olaraq qaldı, yaş ötdü. 5 il biz faktiki olaraq ciddi sənətlə məşğul olmadıq. Hə, indi dəyişildi nəsə. Amma mənim o ötən, boşuna keçən 5 ilimin hesabını kim verəcək? O illərimi kim qaytaracaq? Mənə və mənim kimi digər böyük sənətkarlara?

Bəzən ayrı-ayrı xalqların sənətçilərinin az qala əl-ayaqlarını yumağa hazırıq, amma öz sənətçilərimizi diqqətdən kənarda saxlayır, lazımi diqqəti yetirmirik. Sənətçilərimizin dırnağına dəyməyənləri gətirib ölkəmizdə baş tacı edir, başlarına pullar səpir, gedəndə çamadanlarını dolu göndəririrlər, amma Azərbaycan aktyorunu tədbirə dəvət edəndə onun öz zəhmət haqqını vermirlər...

**"Sənətçilərimizin dırnağına dəyməyənləri gətirib ölkəmizdə baş tacı edir, başlarına pullar səpir, gedəndə çamadanlarını dolu göndərirlər, amma Azərbaycan aktyorunu tədbirə dəvət edəndə onun öz zəhmət haqqını vermirlər"**

❑ Xalidə GƏRAY

YENİ MÜSAVAT

Son səhifə

N 156 (6477) 20 iyul 2016


# Pilotlar niyə havada yatır?

Avropalı pilotlar birliyi tərəfindən aparılan araşdırma zamanı müəyyən olunub ki, Avropada hər 3 pilotdan 1-i uçuş əsnasında ən azı bir dəfə pilot kabinasında yatır. Araşdırma zamanı Avropa səviyyəsində 6 mindən çox pilota iş əsnasında nə qədər yorulduqları ilə əlaqədar suallar verilib. İngiltərədə pilotların 43 faizi, Danimarkada 50 faizi, Norveçdə 53 faizi, İsveçdə isə 54 faizinin uçuş əsnasında ən azı bir dəfə istəmədən də olsa yatdığı üzə çıxıb. İngiltərədə isə pilotların üçdə biri oyandıqları vaxt həmkarlarını da yatmış halda tapdıqlarını deyirlər. Pilotlar isə vurğulayır ki, uzun müddətli səfərlər, hava limanında gözləyərək keçən vaxt, gecə uçuşlarına görə uzun müddət yuxusuz qalırlar. Almaniyada isə hər 5 pilotdan 4-ü həddindən artıq yorğunluq səbəbi ilə uçuş əsnasında səhvlər etdiyini söyləyib. İsveçdə bu nisbət yüzdə 71, Norveçdə isə yüzdə 79 -dur.





## 26 ay ərzində 6 uşaq doğdu

Amerikanın Kanzas şəhərində yaşayan cütlüyün 26 ay ərzində üç əkizi (6 körpə) dünyaya gəlib. Onlar ilk uşaqlardan birini itirib, buna səbəb səhhətindəki problemlər olub. 20 yaşlı ana Daneşi Kauç deyib ki, insanlara analığı barədə danışanda hər kəs ona möcüzə kimi yanaşır. Məlumatda həmçinin qeyd olunur ki, cütlük sentyabrda toy edəcək. Onlar hələ ki növbəti hamiləliyi planlaşdırmırlar.

Qadın bildirib ki, onların ailəsinin maddi dəstəyə ehtiyacı var. Belə ki, hazırda beş uşağa baxmaq üçün cütlük Gofundme meydanında ianə yığımı təşkil edib. İndiyə qədər cütlük 1.3 min dollar vəsait toplaya bilib.

Məşhur əkizlərin dünyaya gəlişinə dair daha bir maraqlı fakt: Çinin Şandun əyalətində bir qadın dörd uşaq dünyaya gətirib və onları Şimal, Cənub, Qərb, Şərq adlandırıb.

# Ruslar xaricdə tətil zamanı bir-birini görmək istəmir



Rus turistlərin 40 faizi xarici ölkələrdə baş tutan tətil zamanı öz həmvətənləri ilə görüşü arzuedilməz sayır. “Skyscanner” turist servisinin 2.5 min nəfər rus turist arasında keçirdiyi rəy sorğusunun nəticələrinə görə, respondentlərin 40 faizi ümumiyyətlə həmvətənlərinə diqqət göstərmirlər, qalanları isə bu görüşdən məmnundular. 26 faiz bu qarşılaşmadan qeyri-məmnunluğu rusların səyahət etdikləri ölkənin mədəniyyət və adət-ənənəsinə hörmətsizlikləri ilə izah edib. Daha 23 faiz isə qeyd edib ki, rusların ətrafdakılara münasibəti alçaldıcı olur, 17 faiz rusların alkoqollu içkilərdən çox istifadə etməsini əsas gətirib. Rəyi soruşulanların 23 faizi isə bu görüşdən məmnun olur. Onlar hesab edir ki, həmvətənlərlə şən vaxt keçirmək daha məqsədəuyğundur.

44 faiz respondent isə iddia edib ki, ruslar tətil zamanı özlərini digər millətlərdən olan turistlərdən daha pis aparır.



## İlan çalan kişi pivə içdi, həyatı qurtuldu

Avstraliyalı Rod Sommetvili zəhərli ilan sancandan sonra ilk növbədə təcili yardım xidmətinə müraciət edib, ardınca isə soyuducudan pivə çıxararaq içməyə başlayıb. “Huffington Post”un xəbərinə görə, 54 yaşlı Kvinslend sakini daha sonra bu durumu belə izah edib: “Qərar verdim ki, panikaya düşməyim. Yersiz həyəcan vəziyyəti daha da pisləşdirə bilər. Fikirləşdim ki, əgər öləcəmsə, heç olmasa pivə içərək ölüm”.

Xəbərə görə, həkimlər gələnə qədər R.Sommetvil 5 butulka pivə içib. Həkimlər gələndə isə xəstə sərxoş və huşsuz vəziyyətdə olub.




## Qadın üzünə 100 qat krem çəkdi

Cozefin Liliakas adlı isveçli blogger youtube kanalında ilginc videoyazı yerləşdirib. Həmin videoyazıda qadının üzünə 100 qat tonal krem çəkdiyi əks olunur. Rolik 14 iyulda yayımlanıb və ona 850 min dəfə baxılıb. Blogger hər dəfə yeni qat krem çəkdikcə üzünü fenlə qurutmalı olub. Videonun sonunda görünür ki, makiyajın təmizlənməsindən sonra qızın üzü qızarıb.

## Kofe aldılar, içindən kokain çıxdı



Almaniyada Braziliyadan gətirilən kofenin tərkibində 33 kiloqram kokain aşkarlanıb. Narkotiklə dolu torbanı kofe biznesi ilə məşğul olan kompaniya əməkdaşları aşkarlayıblar. Narkotikləri tapandan sonra kompaniya polislə əlaqə saxlayıb. Qeyd edilir ki, narkotik maddə Bremerhafen şəhərinin sahilindən qoyulub. Kim tərəfindən, nə zaman qoyulması isə hələlik bilinmir. Narkodillerlər isə tez-tez kontrabanda üçün bu cür üsullardan istifadə edirlər. Dekabrın əvvəlində Peru polisi iki itinin qarnında 3 kiloqrama yaxın kokain aparmağa cəhd göstərən bir kişini həbs etmişdi.




**QOÇ** - Dəstəyə ehtiyacınızın olduğunu nəzərə alan ulduzlar bu gün sizə kömək göstərəcək. Öz növbənizdə siz də aktivlik göstərməlisiniz. Saat 14-dən sonra daha cəsarətli addımlar atın.

**BUĞA** - Səhhətinizdəki nasazlığa dözə bilsəniz, bu təqvimin ümumi çalarları ürəyinizcə olacaq. Hətta nahar ərəfəsində şəxsi büdcənizdə artım da gözlənilir. Gün şüasında çox durmayın.

**ƏKİZLƏR** - Zodiak işarələri arasında yeni işlərə başlamaq üçün bu gün daha çox sizin bəxtiniz gətirə bilər. Nəzərə alın ki, bu gündən etibarən uzun müddət qarşınızda sipər olan qapılar açılacaq.

**XƏRÇƏNG** - Bir tərəfdən səhhətinizdəki nasazlıq, digər tərəfdənsə işlərinizin ləng inkişafı sizdə çaşqınlıq yarada bilər. Özünüzü itirməyin. Sövdələşmələrdə risk etməyə dəyməz.

**ŞİR** - Əməkdaşlıq zəminində bəxtiniz gətirə bilər. Çünki ulduzların düzümü istənilən sövdələşmədən xeyir qazanacağınızı bəyan edir. Xüsusən də günün ikinci yarısı sürprizləriniz olacaq.

**QIZ** - Qaynar iyulun bu təqvimində hamıdan şanslı olacağınız gözlənilir. Varlanma ehtimalınız da var. Amma uzaq səfərlərə çıxmaq üçün əlverişli ərəfə deyil. Axşam qonaq getmək olar.

**TƏRƏZİ** - Yalnız maliyyə işlərinizdə müəyyən geriləmə mümkündür. Qalan məsələlərdə isə sevindirici məqamlarınız çox olacaq. Qohum-qonşularla, eləcə də həmkarlarınızla mehriban olun.

**ƏQRƏB** - İmkan daxilində oturaq işlərdən uzaqlaşmalı, səyyar fəaliyyətlə məşğul olmalısınız. Qarşılıqlı münasibətlərdə isə hər şey ürəyinizcə olacaq. Vaxt tapıb təbiət qoynuna da çıxın.

**OXATAN** - İxtiyarınızda olan bu təqvimdə ehtiyatlı olmalısınız. Bir məsəldə deyilmişkən, “soyuq su da dodağınızı yandıra bilər”. Bunun üçün ilk növbədə riskli hərəkətlərdən, tələsik qərarlardan uzaq olun.

**OĞLAQ** - Müəyyən məziyyətlərinə görə gərgin gündür. Az qala hər tərəfdən sizə maneələr olacaq. Özünüzdə təpər tapıb hər havaya oynamayın. Saat 15-dən sonra vəziyyətiniz sabitləşəcək.

**SUTÖKƏN** - Çıxardığınız hər bir qərarı dəfələrlə götür-qoy edin. Yanlışlığa yol verməyin. İlk növbədə nüfuzunuzu qoruyun. Astroloji göstəricilər yeni ideyalara yiyələnəcəyinizdən xəbər verir.

**BALIQLAR** - Havaların qaynarlaşması sizin üçün o qədər də səmərəli deyil. Bu səbəbdən diqqətli və alicənab olmalısınız. Yeni təkliflər aldığınız təqdirdə imtina etməyə tələsməməlisiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Uşaq döyüşü milyonları əhatə edir



Amerikada çox geniş yayılan pankreas döyüşləri son günlər uşaqlar arasında da populyarlaşdırılıb. Ölkədə ən kiçiyi 5 yaşında olan, orta hesabla 3 milyon qız və oğlan uşağının qəfəs döyüşü ilə məşğul olduğu bildirilir. Uşaqlar döyüşəndə 2.5 santimetr qalınlığında olan xüsusi əlcəklər geyinir. Bəziləri isə qoruyucu başlıqlardan istifadə etmir. Döyüşləri dəstəkləyənlər uşaqların bunun sayəsində döyüş ruhlu olduqlarını bildiriblər.

Səhifəni hazırladı: SELCAN


Təsìsçì: Rauf ARİFOĞLU
Baş redaktorun bìrìncì müavìnì: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhərì, R.Rüstəmov küçəsì 2528-cì məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

“Yenì Müsavat”ın kompüter mərkəzìndə yığılıb, səhìfələnìb, “Azərbaycan” nəşrìyyatında çap edìlìb. Əlyazmalar gerì qaytarılmır. Müəllìflərlə redaksiyanın mövqeyì uyğun gəlməyə bìlər.

Lìsenziya N: B 114
SAYI: 4.750